MAKRONDAN DAHA BİR İSLAMOFOB ADDIM

Fransada məktəblərdə müsəlman qızların ənənəvi əba geyinməsini qadağan etmək qərarına gəliblər. Qadağanın yeni tədris ilindən qüvvəyə minəcəyi gözlənilir. Bunun necə həyata keçirilməsi məktəb direktorları ilə müzakirə ediləcək. Bu qərar Fransadakı müsəlmanların ciddi narazılığına səbəb olub.

SƏHİFƏ 6-da

YATAQXANA YOX, KİRAYƏ DƏ BAHA

Mövsümi olaraq avqust və sentyabrın ilk ongünlüyündə Bakıda kirayə mənzillərə olan tələbat artır. Demək olar ki, hər il tələbələrin kirayə mənzil tapa bilməməsi problemi ilə qarşılaşırıq. Hazırda kirayə mənzili bazarında tələb və təklif balansı pozulub.

SƏHİFƏ 11-də

"QARABAĞ"IN RƏQİBLƏRİ BƏLLİ OLUB

"Qarabağ"ın UEFA Avropa Liqasının qrup mərhələsindəki rəqibləri bəlli olub. "Report" xəbər verir ki, ölkə çempionu Almaniyanın "Bayer 04", Norveçin "Molde" və İsveçin "Hakken" kollektivləri ilə birlikdə H qrupunda yer alıb. Qeyd edək ki, AL-in qrup mərhələsinə sentyabrın 21-də start veriləcək.

"AZƏRBAYCAN HEÇ BİR HALDA BUNA DÖZMƏYƏCƏK"

ƏRAZİLƏRİMİZDƏ "BOZ ZONA" QALMAYACAQ

Artıq Laçın yolu ilə Azərbaycanın talan edilən milli sərvətlərinin daşınması erası başa çatıb. Keçmiş "gəlirli" günlərin geri qaytarılması naminə düzənlənən "humanitar fəlakət" şousunun da heç bir faydası yoxdur.

Laçın yolunda gömrük postu fəaliyyətini davam etdirəcək. Bütün yüklər nəzarətə götürüləcək. Qarabağa getmək istəyənlər Azərbaycan qanunlarına tabe olaraq rəsmi Bakının icazəsini alacaqlar. Eynilə sivil ölkələrdə olduğu kimi.

Bunun müqabilində Azərbaycan Ağdam-Xankəndi yolunu təklif edir. Hansı ki, bu yoldan istifadə həm Fransa, həm də Rusiyanın məkrli planlarını pozaraq, gələcəkdə BMT səviyyəsində növbəti anti-Azərbaycan müzakirələrini də əngəlləyəcək.

SƏHİFƏ 3-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

2 SENTYABR ŞƏNBƏ 2023 | 32 (4134) Qiyməti - 40 qəpik www.kaspi.az

AZĞINLAŞMIŞ DÜŞMƏNƏ LAYİQLİ CAVAB VERİLDİ

ERMƏNİSTAN RƏHBƏRLİYİNƏ XƏBƏRDARLIQ

Müdafiə Nazirliyinin rəsmi açıqlamasında bir daha Ermənistan rəhbərliyinə xəbərdarlıq edilib. "Yaranmış gərginliyə və onun fəsadlarına görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür", - MN-in məlumatında qeyd olunub.

SƏRHƏDDƏ NÖVBƏTİ ERMƏNİ TƏXRİBATI

Sülh danışıqlarından qaçan İrəvan yenidən şərti sərhəddə hərbi təxribata əl atıb. Düşmən Azərbaycan ordusunun mövqelərini müxtəlif çaplı atıcı silahlar, minaatanlar, artilleriya qurğuları və zərbə PUA-larından atəşə tutub. Təxribatlara cavab verilib.

YENƏ SİLAHLAR "DANIŞDI"

DÜŞMƏN KƏLBƏCƏRİ ATƏŞƏ TUTUB

Müdafiə Nazirliyinin məlumatına görə, Ermənistan silahlı qüvvələrinin Basarkeçər rayonunun Zod yaşayış məntəqəsi istiqamətində yerləşən bölmələri Azərbaycan Ordusunun Kəlbəcər istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlar, minaatanlar, artilleriya qurğuları və zərbə PUA-larından atəşə tutub.

"ONLAR GÖSTƏRMƏYƏ ÇALIŞIRLAR Kİ..."

Siyasi şərhçi Yeganə Hacıyeva "Report"a açıqlamasında deyib ki, bu cür təxribatlarla ermənilərin hesabları var: "Onlar göstərməyə çalışırlar ki, 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın Şimal-Cənub nəqliyyat dəhlizinə alternativ olan Orta Dəhlizlə bağlı təklifləri aktual deyil".

SƏHİFƏ 2-də

Can alan mavi Xəzər...

Səhifə 10-da

Yeni milli park yaradılacaq

Səhifə 8-9-da

Su kranlarımız niyə tez sıradan çıxır?

Səhifə 14-də

Qiymət bahalaşacaq, endirim olmayacaq

Səhifə 13-də

O, heç kəsə bənzəmirdi

Səhifə 15-də

Cahangir Əsgərov vəzifəsindən azad edildi

Cahangir Əsgərov "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti vəzifəsindən azad edilib. Bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb. Sərəncamla "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti təyin olunanadək həmin vəzifənin müvəqqəti icrası "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin birinci vitse-prezidenti Samir Musa oğlu Rzayevə həvalə edilib. Qeyd edək ki, Cahangir Əsgərov 2008-ci ildən "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti olub.

SOCAR-da "Abşeron"la bağlı müzakirə

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və Fransanın "TotalEnergies" şirkəti Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Abşeron" qaz-kondensat yatağının işlənilməsinin ikinci mərhələsi üzrə atılan addımları nəzərdən keçirib.

"Report"un SOCAR-a istinadən verdiyi məlumata görə, bu barədə SOCAR prezidenti Rövşən Nəcəfin "TotalEnergies" şirkətinin baş icraçı direktoru Patrik Puyane ilə görüşündə bildirilib.

Görüşdə SOCAR ilə "TotalEnergies" şirkəti arasında uzunmüddətli səmərəli əməkdaşlıqdan məmnunluq ifadə edilib, birgə həyata keçirilən layihələrin ölkəmizin enerji təhlükəsizliyi və regionun iqtisadi inkişafı baxımından strateji əhəmiyyəti vurğulanıb.

Görüş çərçivəsində "Abşeron" qaz-kondensat yatağından İlkin Hasilat Sxemi (İHS) layihəsi üzrə qaz hasilatına başlanılmasının və bu münasibətlə təşkil olunan tədbirin tarixi əhəmiyyəti qeyd olunub. "Abşeron" yatağının tammiqyaslı işlənilməsinə dair Prezident İlham Əliyev tərəfindən verilən tapşırıqları rəhbər tutaraq, bu istiqamətdə görüləcək işlər müzakirə edilib.

Görüşdə, həmçinin İHS layihəsi üzrə cari əməliyyatlar, texniki və texnoloji təhlükəsizlik sistemləri, habelə enerji sahəsində əməkdaşlıq imkanları nəzərdən keçirilib, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

NÖVBƏTİ ERMƏNİ TƏXRİBATI

Sülh danışıqlarından qaçan İrəvan yenidən şərti sərhəddə hərbi təxribata əl atıb. Düşmən Azərbaycan ordusunun mövqelərini müxtəlif çaplı atıcı silahlar, minaatanlar, artilleriya qurğuları və zərbə PUA-larından atəşə tutub. Təxribatlara cavab verilib.

Sülh danışıqlarından yayınmaq və müzakirələrin istiqamətini başqa yönə dəyişmək üçün Ermənistan rəhbərliyinin son oyunları heç bir nəticə vermir. Növbəti danışıqlar ərəfəsində İrəvan yenidən sərhəddə hərbi təxribatlara əl atıb.

Azərbaycan Müdafiə Nazirliyinin (MN)məlumatına görə, sentyabrın 1-i səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin Basarkeçər rayonunun Zod yaşayış məntəqəsi istiqamətində yerləşən bölmələri Azərbaycan Ordusunun Kəlbəcər istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlar, minaatanlar, artilleriya qurğuları və zərbə PUA-larından atəşə tutub. Nəticədə Azərbaycan Ordusunun üç hərbi qulluqçusu yaralanıb.

Təxirəsalınmaz cavab tədbirləri nəticəsində Azərbaycanla sərhəddə təxribat törədən dörd erməni hərbçisi məhv edilib, biri yaralanıb. Məlumatı Ermənistanın Müdafiə Nazirliyi də təsdiqləyib.

BÜTÜN MƏSULİYYƏT ERMƏNİSTAN RƏHBƏRLİYİNİN ÜZƏRİNƏ DÜŞÜR

Müdafiə Nazirliyinin rəsmi açıqlamasında bir daha Ermənistan rəhbərliyinə xəbərdarlıq edilib. Bildirilib ki, Azərbaycan Ordusunun bölmələrinin guya erməni mülki əhaliyə təhlükə yaratması barədə Ermənistan tərəfinin yaydığı məlumatın heç bir əsası yoxdur. Yalnız legitim hərbi hədəflər atəşə tutulur. "Yaranmış gərginliyə və onun fəsadlarına görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür", - MN-in xəbərdarlığında qeyd olunub.

BEYNƏLXALQ İCTİMAİYYƏT İRƏVANA TƏZYİQ GÖSTƏRMƏLİDİR

Sərhəddə yaşanan son gərginliyə münasibət bildirən britaniyalı politoloq və jurnalist Nil Vatsonun sözlərinə görə, Ermənistan silahlı qüvvələrinin Azərbaycan Ordusunun mövqelərini artilleriya atəşinə tutması yolverilməzdir. "Bu addım Nikol Paşinyanın göstərişi ilə hərəkət edib-etməməsindən asılı olmayaraq erməni tərəfinin çarəsizliyinə dəlalət edir. Erməni tərəfi sülh prosesini qeyri-müəyyən müddətə uzatmağa və ya tamamilə dayandırmağa çalışır. Göründüyü kimi, Ermənistan təkbaşına hərəkət etmir. O, həmişə Cənubi Qafqazda təsiri sürətlə zəifləyən Rusiyadan dəstək alır", - politoloq bildirib.

O, həmçinin beynəlxalq ictimaiyyəti İrəvana təzyiq göstərməyə çağırıb: "Böyük Britaniya və insan haqlarına inananların hamısı adından mən bu təcavüzkar addımları pisləyirəm. Beynəlxalq ictimaiyyəti və medianı həqiqəti axtarmağa, eləcə də Ermənistana təzyiq göstərməyə çağırıram".

Nil Vatson

"BU TƏXRİBATLARIN UZUNMÜDDƏTLİ HESABLARI VAR"

Siyasi şərhçi Yeganə Hacıyeva isə "Report"a açıqlamasında deyib ki, Ermənistanın istənilən hərbi eskalasiyasının cavabı adekvat şəkildə veriləcək. Onun sözlərinə görə, Ermənistan mütəmadi olaraq istər sərhədyanı bölgədə, istərsə də Qarabağda təxribatlara əl atır: "Bu cür təxribatların ermənilərin öz məqsədləri üçün qısamüddətli və uzunmüddətli hesabları var. Onlar göstərməyə çalışırlar ki, 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın Şimal-Cənub nəqliyyat dəhlizinə alternativ olan Orta Dəhlizlə bağlı təklifləri aktual deyil və regionda təhlükə mövcuddur".

Yeganə Hacıyeva

Politoloq bildirib ki, Ermənistan hazırda Azərbaycan tərəfinin onların sərhədyanı bölgədə törətdiyi təxribatlara cavab verməsinə çalışır: "Bununla da sərhədyanı bölgədə baş verənləri beynəlxalq ictimaiyyətin diqqətinə Qarabağ ətrafında baş vermiş hadisələr kimi çatdırsınlar və sərhədyanı bölgədə yaralanan əsgəri Qarabağda yaralanmış mülki şəxs kimi təqdim etsinlər. Bütün bunları nəzərə alan Azərbaycan tərəfi daxildə və sərhəd bölgəsində təhlükəsizliyi təmin etmək üçün lazımi addımlar atır. Bu da Azərbaycanın beynəlxalq hüquqla təsbit olunmuş legitim hüququdur. Ona görə də Ermənistanın istənilən hərbi eskalasiyasının cavabı adekvat şəkildə veriləcək".

ƏRAZİLƏRİMİZDƏ “BOZ ZONA” QALMAYACAQ

Artıq Laçın yolu ilə qanunsuz silahlar, narkotik, Azərbaycanın talan edilən milli sərvətlərinin daşınması erası başa çatıb. Keçmiş “gəlirli” günlərin geri qaytarılması naminə düzənlənən “humanitar fəlakət” şousunun da heç bir faydası yoxdur.

AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Dünya dövlətləri birmənalı olaraq Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə dəstək ifadə edirlər. İşğal dövründə də bu mövqe dəyişməz qalırdı. Lakin tarixi qələbədən sonra yaranan yeni reallıqlar fonunda Azərbaycanın postmüharibə dövründə suveren ərazilərində konstitusion hüquqlarının bərpası istiqamətində atdığı addımlar bəzi qüvvələr tərəfindən maneələrlə qarşılanır. Xüsusilə də, separatçı rejim kartının əldən çıxmaması üçün məkrli planlar həyata keçirilir. Elə Laçın yolunda düzənlənən “humanitar yardım” şousu kimi.

ERMƏNİPƏRƏST FRANSANIN CANFƏŞANLIĞI

Bu məsələdə əsas canfəşanlığı yenə də ermənipərəst mövqeyi ilə ad çıxarmış Fransa edir. Erməni lobbisinə xoş gəlmək üçün Paris meri başda olmaqla bir qrup fransızın sərhədimizdə “yardım karvanı”nın qarşısında foto çəkdirib, ərazi bütövlüyümüzü təhdid edən açıqlamalar verməsi, əslində mövcud reallığı dəyişmək iqtidarında deyil. Parisin dünya miqyasında aldığı ağır zərbələr onun “supergüc” olması barədə iddialarının sadəcə sözdə olduğunu bir daha təsdiqləyir.

RUSİYANIN İKİBAŞLI SİYASİ OYUNU

Yaşanan son proseslərdə diqqəti çəkən iki yanaşma mövcuddur. Fransa Laçın yolunun açılması və “dəhliz statusu”nun qalmasında israr edir. Qarabağda sülhməramlı missiyasını yerinə yetirən Rusiya isə həm Azərbaycanın təklif etdiyi Ağdam-Xankəndi yolunun, həm də Laçın yolunun istifadəyə açıq olmasında maraqlı görünür. Fransanın mövqeyinin Azərbaycana qarşı birbaşa təhdid olduğu açıq şəkildə görünsə də, rusların yanaşmasında da ikibaşlılıq mövcuddur. Bu, özünü rus sülhməramlıların Azərbaycanın yardım karvanının qarşısını kəsmək üçün dişli maneələrdən istifadə etməsində, Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarovanın Laçın yolu ilə bağlı mövcud durumun “Ermənistanın Qarabağı Azərbaycan ərazisi kimi tanınmasının nəticəsi” olaraq təqdim etməsində görünür.

LAÇIN YOLUNDA “AÇIQ SƏRHƏD” OLMAYACAQ

İndi isə müəyyən detallara diqqət yetirək. Beynəlxalq birlik Azərbaycanın Xankəndidəki ermənilərlə birbaşa təmas qurmasını istəyir. Bakı etiraz etmir. Təkliflərini verir, lakin qarşı tərəf görüşlərə gəlmir. Azərbaycan-Ermənistan sülh prosesinin moderatorları Laçın yolunun açılmasını istəyir. Rəsmi Bakı buna da “hə” deyir, lakin beynəlxalq hüquqa əsaslanan müəyyən şərtlər daxilində. Laçın yolunda gömrük postu fəaliyyətini davam etdirəcək. Bütün yüklər nəzarətə götürüləcək. Qarabağa getmək istəyənlər Azərbaycan qanunlarına tabe olaraq rəsmi Bakının icazəsini alacaqlar. Eynilə sivil ölkələrdə olduğu kimi. Bunun müqabilində Azərbaycan ən qısa və əlverişli marşrutu təklif edir - Ağdam-Xankəndi yolu. Hansı ki, bu yoldan istifadə həm Fransa, həm də Rusiyanın məkrli planlarını pozaraq, gələcəkdə BMT səviyyəsində növbəti anti-Azərbaycan müzakirələrini də əngəlləyəcək. Humanitar yardım missiyasında əsas rol bitərəflilik prinsiplərini kobud şəkildə pozan Beynəlxalq Qırmızı Xaç Komitəsinə deyil, Azərbaycan Qırmızı Aypara Cəmiyyətinə (AQAC) həvalə olunacaq. BQXK-nın Xankəndidəki qanunsuz fəaliyyətinə də son qoyulacaq.

Hikmət Hacıyev

“AZƏRBAYCAN HEÇ BİR HALDA BUNA DÖZMƏYƏCƏK”

Rəsmi Bakının aylardır davam edən “yardım” şousu ilə bağlı mövqeyi məlumdur. Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev xarici ölkələrin diplomatik nümayəndələri ilə birlikdə Ağdama səfəri zamanı bildirib ki, Azərbaycan öz ərazisində hər hansı bir boz zonanın olmasını qəbul etməyəcək: “Kimlərsə düşünürlər ki, onlar mövcud şəraiti olduğu kimi davam etdirəcəklər və separatist statusunda yaşamaqda davam edərək və qeyri-qanuni rejimin mövcudluğunu təmin edəcəklər, bu, baş verməyəcəkdir. Azərbaycan heç bir halda buna dözməyəcək. Onların da bu yalançı humanitar şoularının əsas məqsədi ondan ibarətdir ki, əsl niyyətlərini və xislətlərini gizlətsinlər. Əsl niyyət isə Ermənistanın vaxtilə Azərbaycanın işğal altında olan ərazilərində yaratdığı qondarma, qanunsuz rejimin mövcudluğunu təmin etməkdir və bu məqsədlə də müxtəlif bəhanələrdən istifadə edirlər”.

Xankəndinə yola düşən humanitar yük karvanı Bakının mesajlarını da aparmaqdadır. Ağdam-Xankəndi yolundan istifadədən imtina, reinteqrasiya görüşlərinin başlanmasını əngəlləmə cəhdləri rasizm və diskriminasiya kimi qiymətləndirilə bilər. Bunun nümunələri Vaqif Xaçatryan və milli atributlarımızı təhqir edən erməni futbolçularının Laçın yolunda saxlanılaraq ədalət mühakiməsinə təslim edilməsində göründü. Bəli, artıq Laçın yolu ilə qanunsuz silahlar, narkotik, Azərbaycanın talan edilən milli sərvətlərinin daşınması erası başa çatıb. Keçmiş “gəlirli” günlərin geri qaytarılması naminə düzənlənən “humanitar fəlakət” şousunun da heç bir faydası yoxdur. Çünki suveren ərazilərimizdə və sərhədlərimizdə yeganə söz sahibi Azərbaycan dövləti və onun Konstitusiyasına əsaslanan milli qanunlarımız və iradəmizdir.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 \ (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

İrəvan itirir, BAKI qazanır

Azərbaycan-Ermənistan münasibətləri çoxtərəflidir, regional təsirlərə malik ola biləcək böyük bir gündəliyi əhatə edir. Ona görə də nə qədər irəliləyişlər olsa da, hələ iki ölkə arasında hərtərəfli və yekun sülhdən danışmaq tezdir.

AQŞİN KƏRİMOV

Qarabağ münaqişəsi bitsə də, ortada həll edilməmiş məsələlər qalır. Bu amil Cənubi Qafqaz üçün ciddi siqnaldır.

Azərbaycanla Ermənistan arasında açıq qalan məsələlərin həllinə yekun həll işığı salınmadıqca, regionda hərarət artır, hər bir xırda detal belə, bölgədə liderlik uğurundakı mübarizəni tətikləyir.

REGİON UĞRUNDA RƏQABƏT

Azərbaycan və Türkiyə strateji müttəfiqlik müstəvisində hərəkət edərək çoxqütblü beynəlxalq siyasi nizamın içərisində əməkdaşlıq formatına açıq şəkildə meydan verməklə regional temperaturu normasına qaytarmaqda israrlıdır.

Rusiya və Qərb isə Ukraynadakı müharibə səbəbindən bir-birilə rəqabəti kəskinləşdirərək regionlar üzrə pay bölgüsündə ən "bərəkətli" yerlərdə nəzarəti ələ keçirmək üçün çalışırlar. Qərb-Rusiya hibrid müharibəsinin yedəyində İran da özünün siyasi şiəlik xəttini parlatmaq üçün enerji sərf edir. İranın rəqibi İsrail isə artıq Cənubi Qafqazda oyunçuya çevrilir.

Regiondakı vitrinə Çin və Hindistan da öz "məhsulları"nı yerləşdirmək üçün əllərindən gələni edirlər. Hərçənd Yeni Dehli Pekinlə rəqabətdə geridədir.

AZƏRBAYCAN REGİONAL OYUNÇUYA ÇEVRİLİR

Bütün bunlar Azərbaycan-Ermənistan münasibətlərindəki açıq qalan məsələlərin mümkün həlli fonunda regionun gələcəyini təsvir etməyə bir neçə ipucu verir.

Yəni, sual olunur, Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi imzalansa, regiondakı rəqabət alovu sönəcəkmi?

Bu suala birmənalı olaraq proqnozlaşdırıla bilən müsbət cavab vermək olduqca çətindir. Çünki Bakı-İrəvan gündəliyi üzrə bütün parametrlərdə dəqiqləşmələr olsa belə, qlobal və regional aktorlar ambisiyalarını gerçəkləşdirmək həvəsindən düşməyəcəklər.

Rəqabətin tündləşməsi ona görə davam edəcək ki, ortaya Rusiya ilə Qərb arasında incə balansı saxlayan, Türkiyə ilə strateji müttəfiqlik quran, Çin, İsrail, Pakistan kimi oyunçularla yaxşı münasibətlərə malik olan Azərbaycan regional oyunçuluq qabiliyyətinə yiyələnir.

Üstəgəl, Azərbaycanın zəngin neft-qaz yataqları, Avropaya enerji nəqli, gələcək üçün yaşıl enerji üzrə ixrac potensialı ölkəni oyunçuların gözündə cazibəli edir. Bu şövqlə Azərbaycana qarşı qısqanclıq nümayiş etdirən ölkələrin maraqları toqquşmaq potensialındadır.

ERMƏNİSTAN DE-YURE DÖVLƏT OLSA DA...

İkinci bir tərəfdən, regiondakı həssaslıq dərəcəsinin Rusiya-Ukrayna müharibəsi səbəbilə çoxalması ehtimalları daha güclü variant kimi səslənir. Ermənistan de-yure dövlət olsa da, faktiki olaraq müxtəlif oyunçuların əsarət zəncirinə bağlanıb, Gürcüstan isə ərazi münaqişəsindən əziyyət çəkir.

Ermənistanın gələcəyi ilə bağlı böyük sual işarələri mövcuddur, ümumiyyətlə, hətta Azərbaycanla sülh müqaviləsi imzalansa belə, Ermənistan dövlət kimi qala bilmək potensialını saxlayacaqmı?

Bu sual ona görə aktualdır ki, Ermənistan istisna olmaqla, regionda hər bir oyunçu öz miqyası çərçivəsində meydan oxuya bilmək tərzinə sahibdir.

İMPERİYA İDDİALARINA QARŞI ALTERNATİV PLATFORMA

Bu, olduqca vacib və perspektiv dəyəri ola biləcək gücə malikdir, Rusiyanın imperiya iddialarına qarşı alternativ təqdim edəcək platformadır.

Elə bu səbəbdəndir ki, Azərbaycan Ermənistanla münasibətlərin gələcəyini Rusiyanın monopoliyasına verməmək üçün Qərbin qurduğu sülh masasına da müsbət yanaşır.

Ancaq geniş mənada Azərbaycan-Ermənistan münasibətləri çoxtərəflidir, regional təsirlərə malik ola biləcək böyük bir gündəliyi əhatə edir.

Nə qədər irəliləyişlər olsa da, hələ hərtərəfli və yekun sülhdən danışmaq tezdir. Çünki ortada Azərbaycan-Ermənistan münasibətlərindəki sərhədlərin delimitasiyasından tutmuş Qərbi azərbaycanlıların geri qayıdışına qədər çoxşaxəli gündəlik var.

Həmin gündəliyi əhatə edən məsələlərin icrası Azərbaycan üçün böyük bir sifarişdir. Reallıq budur ki, rəsmi Bakı alternativlər təklif etməklə geosiyasi blokların Cənubi Qafqaza baxışını dəyişmək yolunda inamla addımlayır.

KREML BÖLGƏDƏ QALMAQ ÜÇÜN ƏLİNDƏKİ KARTLARI OYNAYIR

İrəvan Azərbaycan ərazilərinə müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinə ümid bağlayırdı, güman edirdi ki, Moskva həmin kartını Ermənistanın xeyrinə istifadə edəcək. Təbii ki, Kreml əlindəki kartları oynayır, regional təsir dairələrini genişləndirmək məqsədləri naminə onları gah bir masaya, gah da başqa masaya qoyur. Ancaq Rusiya bunu Ermənistanı qorumaq, rəsmi İrəvandakı xəstə təxəyyülləri mühafizə etməkdən ötrü etmir.

Azərbaycanla Ermənistan arasındakı münasibətləri tənzimləyən baza sənəd 10 Noyabr Bəyanatıdır, Rusiya bu sənədi regional ambisiyalarının davamı kimi inkişaf etdirmək istədikcə, Qərb də Bakı-İrəvan gündəliyinə effektiv təsir etmək rıçaqlarını axtarır.

Beləliklə, Azərbaycan Rusiya və Qərb arasındakı mövqelərini Ermənistanın sıxışdırılması ilə bərkidir, yəni Bakı İrəvanın itirdiyi bütün nöqtələrə əlverişli çıxış imkanları əldə edir.

Bakı üçün bu, böyük bir strategiyanın tərkib hissəsidir, ancaq Azərbaycan maksimalist məqsədlərinə çatmaqdan ötrü Rusiya sülhməramlılarının regiondan çıxarılmasını da təmin etmək çağırışı ilə qarşı-qarşıyadır.

Rusiya sülhməramlılarının regionu tərk etməsi barədə siqnallar Prezident İlham Əliyevin mesajlarında görünür, çünki o, Azərbaycanın bütün ərazilərində dövlətin suverenliyini təmin edəcəyi iddiasını ortaya qoyur.

Bunun konkret nə zaman baş verəcəyi dəqiq deyil, hərçənd ki, sülhməramlıların qalma müddəti 5 il üçün nəzərdə tutulub. Məntiqlə Azərbaycan 10 Noyabr Bəyanatının 5-ci ilinə qədər Qarabağda açıq qalan məsələləri hərtərəfli həll variantında yoluna qoymaq üçün Moskva ilə münasibətlərdə manevrlər edir.

Rəsmi Bakının manevrləri onun NATO ilə genişlənən əməkdaşlıq çərçivələrinin regional gələcəyini qiymətləndirməyə əsas verir. Bu cümlənin açılımı odur ki, Azərbaycan NATO üzvü olan Türkiyə ilə strateji müttəfiqliyin fonunu müəyyən həddə qədər Qərbə istiqamətlənə biləcək sahə kimi dəyərləndirir.

Bütün günahkarlar, Qarabağda Azərbaycana qarşı cinayət törətmiş şəxslər, müharibə cinayəti törədənlər gec-tez Azərbaycan qanunlarına görə cavab verməli olacaqlar. Bu, artıq gün kimi aydındır. Mövcud vəziyyət həm birinci Qarabağ müharibəsində, həm də 2020-ci il müharibəsində hərbi cinayətlərə imza atan şəxslərin yuxusuna haram qatıb.

AZƏRBAYCANIN HUMANİZM ŞAPALAĞI

FUAD ABASOĞLU

Laçındakı sərhəd-keçid məntəqəsində Azərbaycandan Ermənistana gedən və 2021-ci ildə bayrağımızı təhqir edən 3 erməni futbolçu saxlanılıb. Ötən ay da, Xocalı soyqırımının iştirakçılarından olan Vaqif Xaçatryanın saxlanılması Azərbaycanın bu məsələdə qətiyyətli olduğundan və heç kəsə güzəştə getməyəcəyindən xəbər verir.

Sözügedən erməni futbolçular 2021-ci ilin dekabr ayında Azərbaycan bayrağını tapdalamışdılar və görüntülər sosial şəbəkələrdə yayılmışdı. Həmin vaxt Azərbaycan Respublikasının dövlət bayrağı və ya gerbi barədə təhqiredici hərəkətlər maddələri ilə cinayət işi açılmışdı və futbolçular beynəlxalq axtarışa verilmişdi.

Görünür, günü top qovmaqla keçən və videonun sosial şəbəkədə yaydıqdan sonra özünü qəhrəman hiss edən ermənilər hansı səhvə yol verdiklərindən xəbərsiz olublar. Azərbaycanın qətiyyətli mövqeyi ilə gec-tez üzə-üzə qalacaqlarını düşünməyiblər. Elə olmasaydı, barələrində beynəlxalq axtarış çıxarılan üç hay əlini-qolunu sallayaraq Həkəri körpüsünə qədər gəlməzdilər.

AZƏRBAYCAN DÜNYAYA MESAJ VERİR

Baş Prokurorluğun məlumatına görə, istintaqa cəlb edilən şəxslər törətdikləri əməli etiraf edərək səmimi peşman olduqlarını və gələcəkdə bu kimi hərəkətlərə yol verməyəcəklərini bildiriblər. Qurum təqsirləndirilən şəxslərin yaşını, törətdikləri əməli səmimi etiraf etməklə peşman olmalarını nəzərə alıb və humanizm prinsipi tətbiq edərək onların barəsində cinayət təqibinə xitam verib. Bununla belə, saxlanılan şəxslər inzibati məsuliyyətə cəlb olunublar və 10 gün müddətinə həbs ediliblər. Həbs müddəti bitdikdən sonra isə həmin şəxslər ölkəni tərk edə biləcəklər. Bununla da Azərbaycan dövləti bütün dünyaya humanizm dərsi keçərək, 2 ilini həbsdə keçirməli olan erməni gəncləri sözün əsl mənasında əfv edib. Bu hərəkət beynəlxalq platformalarda həyasızcasına Azərbaycanı anti-humanizmdə ittiham edən dövlətlərə, yolunu azaraq Ermənistan tərəfə keçən və saxta ittihamlarla uzunmüddətli həbsə atılan Azərbaycan əsgərinə qarşı hədyanlıq nümayiş etdirən erməni hökumətinə tərs şapalaq idi.

SEPARATÇILARIN BAŞQA QURTULUŞ YOLU YOXDUR

Həkəri körpüsündə erməni futbolçuların həbsi həm də bir mesaj kimi qəbul edilməlidir. Bu addım vaxtilə haqqında cinayət işi açılmış şəxslərin ədalət məhkəməsindən qaça bilməyəcəyi deməkdir. Qarabağda Azərbaycana qarşı cinayət törətmiş şəxslər gec-tez Azərbaycan qanunlarına görə cavab verməli olacaqlar. Mövcud vəziyyət həm birinci Qarabağ müharibəsində, həm də 2020-ci il müharibəsində hərbi cinayətlərə imza atan şəxslərin yuxusuna haram qatıb. Vaqif Xaçatryanın həbsindən sonra yuxusu ərşə çəkilən separatçılar futbolçuların həbsindən əməlli-başlı təşvişə düşüblər. Amma unudurlar ki, haraya üz tutsalar da, Azərbaycan ədalətindən qaça bilməyəcəklər. Qarabağdakı separatçılar isə "Laçın" sərhəd-buraxılış məntəqəsindən keçərək Ermənistana gedə bilməyəcəklərini hələ Vaqif Xaçatryanın həbsi zamanı dərk etmişdilər. Ən yaxşı halda, bu şəxslər Azərbaycan Ordusunun Xankəndiyə girəcəyi günü və onları həbs edəcəyi saatı gözləməlidirlər. Başqa qurtuluş yolu yoxdur.

ARAYİK İRƏVANA QAÇMAQ İSTƏYİR

Qarabağdakı erməni separatçıların lideri Arayik Arutyunyan barədə bir müddətdir "istefa" xəbərləri dolaşırdı. O, hər dəfə bu xəbəri təkzib etsə də, Həkəri körpüsündə üç erməni futbolçunun həbsindən sonra gecə saatlarında artıq "istefa" barədə danışmağa başlayıb. Avqustun 31-də o, artıq istefasını açıqlayıb. Görünür, futbolçuların həbsi Arayikin də kürkünə birə salıb. Arutyunyan "istefa" verərək tələsik İrəvana, oradan da hansısa ölkəyə qaçmaq niyyətindədir. Amma unudur ki, Azərbaycan ədalətindən qaçmaq qeyri-mümkündür. Futbolçular kimi onun da etiraf və peşmançılıqla dolu açıqlamalarını dinləyəcəyimiz, sonra isə uzunmüddətli həbsə göndəriləcəyi gün artıq çox yaxındır.

VARDANYAN DA İRƏVANA QAÇMAĞI PLANLAŞDIRIR

Erməni separatçılarının "lider"lərindən sayılan Ruben Vardanyan da Qarabağdan çıxmaq üçün bəhanə və yollar axtarır. Son çarə kimi yenidən Rusiyaya sığınaraq, İrəvana keçmək, burada siyasətlə məşğul olmaq niyyətindədir. "Həyat üçün ölkə" partiyasının gizli qurucusu sayılan Vardanyan bunu heç vaxt etiraf etməsə də, İrəvanda keçiriləcək mer və ağsaqqallar şurası seçkilərində bu partiyanın namizədi Mane Tandilyanın dəstəklənməsi üçün müraciət edib. Elə xoruzun quyruğu da bu müraciətdə görünür. Artıq Qarabağda işinin qalmadığını, gec-tez həbs ediləcəyini anlayan Vardanyan dəryada saman çöpündən yapışıb. Bu çöp isə keçiriləcək seçkilərdə partiyanın qalib gəlməsi, Mane Tandilyanın nüfuzundan istifadə edərək, İrəvana köçmək, burada aktiv siyasi fəaliyyət göstərməkdən ibarətdir. Vardanyan bu məsələdə Rusiyadakı ağalarına güvənir. Amma onun Xankəndidən sonra köçəcəyi və fəaliyyət göstərəcəyi yeganə yer Bakı həbsxanası da ola bilər.



MAKRONDAN daha bir islamofob addım

Fransada məktəblərdə müsəlman qızların ənənəvi əba geyinməsini qadağan etmək qərarına gəliblər. Qadağanın yeni tədris ilindən qüvvəyə minəcəyi gözlənilir. Bunun necə həyata keçirilməsi məktəb direktorları ilə müzakirə ediləcək. Bu qərar Fransada yaşayan müsəlmanların ciddi narazılığına səbəb olub.

AZƏR NURİYEV

Bu gün islamofobiya, irqi ayı-seçkilik, dini dözümsüzlük Fransada özünü ən iyrənc formada göstərir. Biabırçılıq o həddə çatıb ki, rəsmi Paris məktəblərdə qızların ənənəvi müsəlman əbası geyinməsini qadağan etmək qərarına gəlib. Bu barədə məlumatı Fransanın təhsil naziri Qabriyel Attal verib. Nazir "TF1" telekanalına müsahibəsində deyib ki, "siz sinfə daxil olanda şagirdlərin dini mənsubiyyətlərini yalnız onlara baxmaqla müəyyən edə bilməməlisiniz". Attal əlavə edib ki, qadağanın necə həyata keçirilməsini məktəb direktorları ilə müzakirə edəcək. Qadağanın yeni tədris ilindən, sentyabrın 4-dən qüvvəyə minəcəyi gözlənilir. Məlumat üçün bildirək ki, Fransada 2004-cü ildə şagirdlərin müsəlman baş örtüklərini nümayiş etdirməsini qadağan edən qanun qəbul olunub. Lakin indiyədək əba rəsmən qadağan olunmamışdı. İndi isə belə bir radikal addım atılır. Bəs səbəb nədir?

İSLAMIN ARTAN NÜFUZU

Bu da qeyd olunur ki, son vaxtlar Fransa məktəblərində ənənəvi islam geyimi olan əba geyinən qızların sayı artıb. Rəsmilər bildirirlər ki, guya bu, Fransanın dünyəvi dəyərlərinə ziddir. Ötən ay Fransa Milli Məclisinin sədri Yael Braun-Pive "müstəsna olaraq dünyəvi dövlət məktəbləri" prinsipinin tətbiqinə çağırmışdı. Onun sözlərinə görə, bu məktəblərdə "nə Ramazan, nə əba, nə də dini mənsubiyyəti əks etdirən başqa elementlər olmalıdır". Respublika Partiyası təhsil nazirinin təşəbbüsünü dəstəkləyib və bunu "zəruri və vaxtında atılmış addım" adlandırıb. "Yenilməz Fransa" – LFI solçu partiyasında isə əksinə, qadağanı konstitusiyaya zidd hesab edirlər. Ölkədə bir çox islam təşkilatlarını birləşdirən Fransa Müsəlmanları Şurası (CFCM) bəyan edib ki, özlüyündə geyim heç bir dini mənsubiyyət əks etdirmir.

İSLAMOFOBİYANI ƏKS ETDİRƏN OLAYLAR ARTIB

Ən pisi odur ki, Fransada islamofobiya meylləri 80 faizə yüksəlib. Ölkədə islamofob baxışların artması bir çox səbəblərlə izah oluna bilər. Birincisi, islamofobiyanın artmasına daxili siyasətlə yanaşı, xarici siyasətin də təsiri var. Liviya, Nigerdə və s. yerlərdəki olaylar Fransa siyasətinin uduzmasına səbəb olur. Daxildə miqrantların son aksiyaları da prezident Emmanuel Makronun xarici siyasətində antiislam meyllərini ortaya çıxarıb. Bu da nəticəsiz qalmır - islam ölkələrində Fransa əleyhinə böyük narazılıq yaranıb. İslam aləmində Fransa anlayışı və onların yürütdüyü siyasət böyük nifrətlə qarşılanır.

İNSANLARIN NARAZILIĞI PİK HƏDDƏDİR

İkincisi, islamofobiyanın dəstəklənməsi ekstremist qüvvələrin baş qaldırması və yayılmasına zəmin yaradır. Belə meyllərin genişlənməsinin əsas səbəblərindən biri bu ölkələrdə dövlət tərəfindən (yarı örtülü olsa da) müvafiq siyasətin yeridilməsidir. Belə ki, son illər bir sıra Avropa ölkələrində irqi, milli və dini zəmində baş vermiş dəhşətli cinayətlər bu fikri bir daha təsdiqləyib. Fransada əlcəzairəsilli şəxsin polis tərəfindən qətlə yetirilməsinə reaksiyalar onu deməyə əsas verir ki, insanların narazılığı pik həddə çatıb. Əsasən Qərb ölkələrində yayılmış bu ideologiya ona gətirib çıxarıb ki, Avropa və Amerikada yaşayan müsəlmanların əksəriyyəti öz canlarının daim təhlükə altında olduğunu düşünürlər. Təbii ki, bunda qəzet və jurnalların, televiziya və radio proqramlarının, eləcə də internet vasitəsilə yayımlanan məlumatların rolu danılmazdır.

TARİXİ SAXTALAŞDIRMA CƏHDİ

Digər səbəbi isə Qərb ölkələrinin, liderlərinin susqunluğudur. Onların baş verən son iyrənc olaylar fonunda fəaliyyətsizlik nümayiş etdirmələri müsəlmanların əsas hüquqlarından məhrum olmalarına gətirib çıxarır.

Yeri gəlmişkən, islamofobiyanın bir səbəbi də tarixi faktların saxtalaşdırılması ilə bağlıdır. İddia edilir ki, islam dini Asiyadan gələrək Avropaya müdaxilə edib. Halbuki, Əndəlus və Kordobada islam hakim olarkən orada xristianlığa aid heç bir abidə dağıdılmadığı halda, xristianlıq buraya qayıtdıqdan sonra islam mədəniyyətinə aid nümunələr məhv edilmişdi.

PARİS DÜNYA MÜSƏLMANLARINI HƏDƏF SEÇİB

Fransanın müstəmləkə imperiyası dövründən bəri müsəlmanlara münasibətdə yürütdüyü siyasət göstərir ki, bu ölkə təkcə vətəndaşı olan müsəlmanlara qarşı deyil, ümumilikdə islam ideyalarına və müsəlman dünyasına qarşı mübarizə aparır. Fransa müstəmləkəçi dövlət kimi Şimali Afrikanın yerli xalqlarının dini ənənələrini, mədəniyyətini sıxışdırmışdı. Bu regionda mövcud olan mədəniyyətlərin və dinlərin, əsasən islamın məhvinə sistemli yanaşma var idi və o vaxtdan islamın "demonizasiyası"na başlanılıb.

Beləliklə, Fransa bu gün özünün ən ağır, ən böhranlı dövrünü yaşayır. Məhz prezident Makronun siyasətinin nəticəsidir ki, ölkə xarici, daxili siyasətdə "uğursuzluq zolağı"ndan çıxa bilmir.

Yekunda bir faktı diqqətə çatdırmaq istərdik. Hazırda Fransada 68 milyon insan yaşayır ki, onların da 19 milyonunu müxtəlif ölkələrdən gələn miqrantlar, xüsusilə də müsəlmanlar təşkil edir.

BİRİ VARLANIR, DİGƏRİ ALDANIR

Bu gün internet və onun sayəsində formalaşmış sosial şəbəkələr unikal alətlərdir. Bu alətlər çox qısa zamanda dünyanı nəzərəçarpacaq dərəcədə dəyişiblər. Vaxtilə imkansız kimi görünən işlər indi bir düymənin sıxılması ilə reallaşır.

KUBRA MƏHƏRRƏMOVA

Bu gün dünya öz oxu ətrafında deyil, internetin ətrafında fırlanır desək, yanılmarıq. İnternet insanlara yeni dünya, yeni imkanlar, arzular, uğurlar bəxş elədi.

Özü də hər bir sahədə. Məsələn, internet vasitəsiylə adi bir İT mühəndisi yaratdığı proqram və ya tətbiqə görə milyonçuya çevrildi. Kitab satıcısı məhz internetə görə dünyanın ən varlı adamlarından biri oldu.

Vaxtilə imkansız görünən işləri bu gün həyata keçirtmək üçün internet kömək oldu. Yeddi nəsil-əqrabasında pulun nə olduğunu bilməyənlər rəqəmsal dünyanın verdiyi imkanlardan düzgün yararlanaraq milyonçuya çevrildilər. Elm, maliyyə, iqtisadiyyat, media, həkimlik kimi ciddi sahələrlə bərabər dəb, gözəllik məhsulları təbliğ edənlər eyni platformada yerləşdilər.

İNTERNETİN YARATDIĞI PARADOKS

Məsələn, "Instagram" sosial şəbəkəsində Kristiano Ronaldo 601 milyondan çox izləyici ilə ikinci yerdədir. Birinci yerdə isə "Instagram"ın öz səhifəsidir. Üçüncü yerdə isə Lionel Messi 483 milyonluq izləyicisi ilə qərarlaşıb.

İndi isə internetin yaratdığı paradoksa baxın. Məsələn, bir alim və ya həkim ömrünün 20-30 ilini müəyyən sahəyə sərf edir, kəşflər edir, insan həyatı qurtarır, müəyyən maliyyə mövqeyinə çatır.

Eyni zamanda, 2-3 il mütəmadi video-foto paylaşan hər hansı bir sosial şəbəkə istifadəçisi bir anın içində fenomen olur və həmin alim və həkimdən maliyyə cəhətdən daha önə çıxır. Hətta bir gecəyə dünya ulduzlarından daha məşhur ola bilir.

Son illərin ən varlı "youtuberi" və çəkdiyi videolarla dünya trendinə hakim olan Mister Bistin bu günə 500 milyon dollarlıq varidata malik olduğu deyilir. Ekspertlər iddia edirlər ki, o, dünya tarixinə ilk "youtuber" milyarder kimi düşə bilər. Çünki yaratdığı kontent ona hər gün, hətta hər saat qazanc gətirir. Qeyd edim ki, onun restoranlar şəbəkəsi və digər bizneslərə də var ki, bu da əlavə gəlir mənbəyidir. Həm də Mister Bist dünyada tanınan ən məşhur adamlardan biridir. Cimminin uğur hekayəsini öyrənmək üçün onu Harvard biznes məktəbinə mühazirə üçün dəvət edirlər. Bəli, adi bir oğlan bu gün milyarder olmağa doğru əmin addımlarla gedir.

İndi isə sual. Bəs internet olmasaydı Mister Bist və onun kimilər olardımı? Milyonlara sahib olmaq bu qədər asanlaşardımı? Bircə tətbiq yaratmaqla dünyanın ən böyük iş adamına çevrilmək mümkündürmü?

Bugünkü körpələr belə telefon və planşetlə rahat rəftar edə bilir, istədiyi cizgi filminə və ya videolara baxırlar. Bunu 30 il əvvəl kiməsə desəydin, yəqin ki, adamı səfeh zənn edərdilər.

TARİXİ QƏLƏBƏMİZİN RƏQƏMSAL TƏZAHÜRÜ

Bu gün internet və sosial şəbəkələr unikal alətdir. Həm PR, həm siyasi-texnoloji, həm ideoloji, həm də informasiya alətidir. Sadəcə, yadınıza salıram. 44 günlük Vətən müharibəsində ən dəqiq məlumatı əldə etmək üçün yüzminlərlə insan Prezident İlham Əliyevin "Twitter" hesabına abunə oldu. İlk qələbə xəbərlərini də məhz Ali Baş Komandanın səhifəsindən aldıq. Bu, bizim tarixi qələbəmizin rəqəmsal təzahürü idi. Dünyanın hər yerində yaşayan azərbaycanlılar isə sosial şəbəkələrdə işğalçı erməni siyasətinə qarşı mübarizə aparırdı.

HƏR DEYİLƏNƏ İNANMAQ OLMAZ

Lakin etiraf etməliyik ki, bu gün istifadə etdiyimiz texniki tərəqqi ziyanımıza da işləyə bilər. Demək olar ki, hər gün KİV-də sosial şəbəkələr vasitəsiylə aldadılan vətəndaşların şikayətlərini görürük. Yenə də, burada günah ilk növbədə istifadəçinin özündədir. Çünki hər deyilənə inanmaq olmaz. Xüsusilə də indiki zamanda.

Elə bu günlərdə sosial şəbəkələr vasitəsilə vətəndaşları "kreditə qızıl satılır" adı altında kiber üsullarla talayan dəstə üzvləri saxlanılıb.

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən verilən məlumata görə bu cinayətkar dəstə "Tiktok" sosial şəbəkəsində şirniləndirici elanlarla vətəndaşları aldadırmış. Onların qurbanlarının sayı isə 150-dən artıqdır. Bu kimi kiber cinayətlər, demək olar ki, hər an baş verir. Ona görə də mütəxəssislər kart və şəxsi məlumatların üçüncü tərəflə bölüşməməyi xəbərdar edirlər. Hətta bank belə sizdən ancaq müəyyən məlumat istəyə bilər. Hamısını deməyə ehtiyac yoxdur.

Bundan başqa, sosial şəbəkələrdə xeyli sayda dələduz var ki, yalançı elanlarla aşağı qiymətlər vəd edərək mebel, qapı-pəncərə, təmir və s. xidmətlər adı altında vətəndaşları aldadır və pullarını mənimsəyirlər. Heç nədən şübhə etməyən müştəri pulu karta göndərir, sonra da qarşı tərəfdən bloklanır. İndi deyəcəksiniz ki, bəs necə edək?

Sadəcə, bazarda fəaliyyət göstərən, müştərilərin etimadını qazanmış şirkətlərlə əməkdaşlıq etmək lazımdır. Çünki havayı pendir yalnız tələdə olur.

SEHRLİ ÇUBUĞUN SAYƏSİNDƏ HƏR ŞEY BƏSİTLƏŞDİ

Bəzən isə düşünürəm ki, görəsən internet, sosial şəbəkələr bəşəriyyətə lazım idimi? Axı bəşəriyyət normal yaşayırdı. Bilikləri kitab və kitabxanadan, əyləncəni kino və teatrdan, xəbərləri televiziya, radio və qəzetlərdən alırdı. Məlumat ötürülməsinə gəldikdə isə məktub, poçt, rabitə və teleqram var idi.

Amma birdən elə bir şey baş verdi ki, sanki sehrli çubuğun sayəsində hər şey bir düymənin basılması qədər bəsitləşdi. İstədiyin yemək bir toxunuşa evə çatdırıldı, film bir toxunuşa evdə göstərildi, istədiyin müğənni istədiyin qədər oxumağa başladı.

Real dünya rəqəmsal dünya ilə birləşdi. Bundan sonra görəsən nələr olacaq? Hansı dünyalar birləşəcək?

İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRDƏKİ DAŞALTI DÖVLƏT TƏBİƏT YASAQLIĞININ XƏRİTƏSİ HAZIRLANIB

AZƏRBAYCANDA YENİ MİLLİ PARK YARADILACAQ

Fotolar: Sabir Məmmədov / Global Media Group

Firuddin Əliyev: "Aparılan işlər nəticəsində milli parklara səfər edən turistlərin sayında artım olub. Bu ilin yeddi ayı ərzində milli parklara ümumilikdə 90 min 472 turist səfər edib. 2022-ci ilin müvafiq dövründə isə bu rəqəm 83 min 682 nəfər olub".

2023-cü ilin altı ayı ərzində Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Bioloji Müxtəlifliyin Qorunması Xidməti tərəfindən işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı işlər görülüb. Bu və digər məsələlərlə bağlı Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəisi Firuddin Əliyevlə söhbətləşdik.

● 44 gün davam edən Vətən müharibəsində torpaqlarımız işğaldan azad edildi və Qarabağda qurculuq, bərpa işləri başladı. Artıq bir çox yerlərdə əhalinin yaşayışı da var. Bəs mövcud xüsusi mühafizə olunan təbiət ərazilərinin fəaliyyətlərinin bərpası ilə bağlı hansı addımlar atılıb?

● Prezidentin 2021-ci il 20 oktyabr tarixli sərəncamı ilə Bəsitçay Dövlət Təbiət Qoruğunun fəaliyyəti bərpa edilib. Sərəncamın icrası ilə bağlı Qoruğun Əsasnaməsi hazırlanıb, sanitariya-mühafizə zonası müəyyənləşdirilib, aidiyyəti qurumlar ilə razılaşdırılıb. Nazirlər Kabinetinin müvafiq qərarı ilə təsdiq edilib. Bununla yanaşı, işğaldan azad edilmiş ərazilərdə yerləşən digər xüsusi mühafizə olunan təbiət ərazilərinin fəaliyyətlərinin bərpası ilə bağlı işlərə başlanıldı. İndiki mərhələdə Daşaltı Dövlət Təbiət Yasaqlığının xəritəsi hazırlanıb, Yasaqlığın fəaliyyətinin bərpası ilə bağlı məsələyə münasibət bildirilməsi üçün müvafiq dövlət qurumlarından rəylər alınır və yekunlaşma mərhələsindədir.

● İşğaldan azad edilmiş ərazilərdən danışan zaman ilk çətinlik minalanmış ərazilərlə bağlı olur. Bəsitçay Dövlət Təbiət Qoruğunda nə qədər təmizlənməyən ərazi qalıb?

● Azərbaycan Minatəmizləmə Agentliyi tərəfindən Bəsitçay Dövlət Təbiət Qoruğunun ümumi 107 hektar ərazisindən 80 hektara yaxını (79,5 ha) minalardan təmizlənib. Hazırda yalnız 27,5 hektar ərazi təmizlənməmiş qalır.

● Qarabağda yayılmış flora və fauna növlərinin monitorinqi və bərpası istiqamətində hansı işlər görülüb?

● Bioloji Müxtəlifliyin Qorunması Xidməti tərəfindən bioloji müxtəlifliyin növ tərkibinin öyrənilməsi məqsədilə 2023-cü ilin I yarımilliyi ərzində qoruqda monitorinqlər aparılıb. Ördəkli və Baharlı kəndləri ərazisində fototələlər quraşdırılıb, bir sıra nadir fauna və flora - hind tirəndaz, adi qurqovul, çöl donuzu və qamışlıq pişiyi növləri qeydə alınıb.

● Artıq işğaldan azad edilmiş ərazilərə ceyranlar, quşlar da buraxılıb...

● Bəli. Prezidentin may ayında Laçın rayonuna səfəri çərçivəsində boyunlarına xüsusi siqnalötürücü xaltalar bağlanmış dörd baş Şərqi Qafqaz turu, adı "Qırmızı kitab"a düşən və Azərbaycana gətirilən beş ədəd şahin quşu təbiətə buraxılıb. Eyni zamanda, 2023-cü il ərzində işğaldan azad olunan ərazilərdə olan təbii su hövzələrinə 83515 ədəd balıq körpəsi buraxılıb. 2023-cü ilin iyun ayında Kəlbəcər rayonunun təbii landşaftlarında adları Azərbaycanın "Qırmızı kitab"ına düşmüş, nadir və nəsli kəsilmək təhlükəsində olan Ön Asiya bəbiri və bezoar keçisi populyasiyalarının, eləcə də digər iri məməlilərin mövcud olduğu biotoplarda monitorinq məqsədilə çöl-tədqiqat işləri aparılıb. Tədqiqatlar zamanı Kəlbəcər rayonu ərazisində bezoar keçisi, meşə pişiyi, daşlıq dələsi, Qafqaz sincabı, porsuq, hind tirəndazı, adi qaqqal, adi cüyür, adi tülkü, canavar, çöl donuzu qeydə alınıb.

> "Əvvəlki illərlə müqayisədə yanğın hadisələrinin sayı və həcmi azalıb, amma təəssüf ki, son vaxtlar ovçuluq təsərrüfatlarında və onlara yaxın olan ərazilərdə yanğınların baş verməsi halları müşahidə edilir."

● Bir müddət əvvəl "Hirkan meşələri" nominasiyası UNESCO-nun Ümumdünya İrs Komitəsinə təqdim edilib. Bununla bağlı proses hansı mərhələdədir?

● Hirkan Milli Parkının yerləşdiyi ərazi təbii iqliminə görə rütubətli subtropik xüsusiyyətə malikdir. Füsunkar təbiəti olan Hirkanla bağlı sənəd işləri artıq yekunlaşdırılıb və sənədlər komitəyə təqdim edilib. Bu ilin sentyabr ayında Səudiyyə Ərəbistanında keçiriləcək komitənin iclasında yekun qərar veriləcək.

MİLLİ PARKLARLA BAĞLI YENİLİKLƏR

● Azərbaycan ərazisində yeni Milli parkın yaradılması, bəzilərində ərazilərin genişləndirilməsi, turizm potensialının yüksəldilməsi istiqamətində işlər görülürdü. Hansı addımlar atılır?

● Hazırda İlisu Dövlət Təbiət Qoruğuna Milli Park statusunun verilməsi və Axar-baxar dağ silsiləsində yeni Milli Parkın yaradılması üçün 2022-ci ildən başlanılmış müvafiq işlər davam etdirilir. Artıq onlara aid ediləcək ərazilərin ilkin xəritələri hazırlanıb. Milli parklarda turistlərin cəlb edilməsi və mühafizənin gücləndirilməsi üçün infrastruktura dair bir sıra işlər görülüb. Belə ki, Şirvan Milli Parkının giriş qapısının yeni dizayn konsepsiya sənədi hazırlanıb və aidiyyəti qurumlardan rəy alınıb. Qızılağac Milli Parkının ərazisində brakonyerliyə qarşı mübarizə aparılması məqsədilə yeni mühafizə postu quraşdırılıb. Turizm potensialının yüksəldilməsi və mühafizənin yaxşı təşkil edilməsi məqsədilə motosikletlər, kvadrosikllar alınıb, ekoturizm marşrutlarının təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilib, turistlərin məlumatlandırılması üçün giriş, məlumatverici, məntəqə və istiqamətləri əks etdirən yeni lövhələr hazırlanaraq, milli parkların ərazilərində yerləşdirilib. Hazırda ümumi belə lövhələrin sayı 860, giriş qapılarının sayı 21 ədəddir. Abşeron Milli Parkının sanitariya-mühafizə zonasının hesabına ərazisinin genişləndirilməsi ilə bağlı müvafiq işlər aparılır. Hazırkı mərhələdə milli parkın genişləndirilmiş yeni ərazisinin xəritəsi hazırlanıb və müvafiq qurumların müsbət rəyləri alınıb.

TƏBİƏTİMİZİ BİRLİKDƏ YANĞINDAN QORUYAQ

● Yay fəslində insanlar dincəlmək üçün milli parklara, istirahət yerlərinə üz tuturlar. Bəzən onların parkların, meşələrin ərazisində yandırdıqları ocaqlar böyük faciələrə səbəb olur.

● Yanğın təhlükəsizliyi qaydalarına və müəyyən olunmuş tələblərə riayət edilməsi vəzifəsindən və statusundan asılı olmayaraq hər kəs üçün məcburidir. Lakin bu cür tələblərə layiqincə əməl olunmaması səbəbindən təəssüf ki, xüsusi mühafizə olunan təbiət ərazilərində, meşə fondu torpaqlarında və ovçuluq təsərrüfatlarında yanğın hadisələri baş verir. Belə yanğınlar aidiyyəti qurumların və əməkdaşlarımızın səyi sayəsində söndürülsə də, təbiətə dəyən ziyanın aradan qaldırılması uzun müddət çəkir və bəzi hallarda ümumiyyətlə mümkün olmur. Bu cür ərazilərdə baş verən yanğınlarda meşə təsərrüfatına (ağac və kol bitkilərinə, yeni ağac pöhrələrinə), fauna və flora aləminə, eyni zamanda, "Qırmızı kitab"a düşən nadir növlərə dəyən zərərin qarşısını almaq, bu ərazilərdə yanğınların baş verməsini üçün yanğın təhlükəsizliyi qaydalarına əməl etmək lazımdır. Bu, hər birimiz üçün məcburi olmaqla yanaşı, həm də təbiətə qayğı nəticəsində olmalıdır. Unutmaq lazım deyil ki, təbiət olmasa həyat olmaz, insan olmaz. Odur ki, gəlin, təbiətimizi birlikdə yanğından qoruyaq.

● Bu ilin yeddi ayı ərzində milli parklara nə qədər turist səfər edib?

● İlin əvvəlindən başlayaraq, milli parkların ərazisində mövcud olan turizm marşrutlarında abadlıq işləri aparılıb, marşrutlar boyunca turizm infrastrukturu yaradılıb. Turizm marşrutları üzərində yeni piknik yerləri quraşdırılıb. Aparılan işlər nəticəsində milli parklara səfər edən turistlərin sayında artım olub. Bu ilin yeddi ayı ərzində milli parklara ümumilikdə 90 min 472 turist səfər edib. 2022-ci ilin müvafiq dövründə isə bu rəqəm 83 min 682 nəfər olub.

● Bu il yadda qalan hadisələrdən biri də "Qırmızı kitab"ın III nəşrinin təqdim edilməsi oldu. Yeni nəşrə hansı flora və fauna növləri daxil edildi?

● III nəşrdə nadir, nəsli kəsilmək təhlükəsi altında olan 241 fauna - 152 onurğalı, 89 onurğasız və 460 flora, 383 ali, 15 ali sporlu, 6 mamır, 14 şibyə, 5 yosun, 37 göbələk növü öz əksini tapıb. Həmçinin, ilk dəfə tərtib olunan çəhrayı siyahıya 51 bitki və 42 heyvan növü salınıb.

MARALLARIN VƏ BİZONLARIN SAYINDA ARTIM QEYDƏ ALINIB

● Nazirlik tərəfindən reintraduksiya layihələri də həyata keçirilir. Həmin heyvanların sayında nə qədər artım qeydə alınıb?

● 2010-cu ildən ceyranların, 2019-cu ilin sonlarından etibarən Avropa bizonunun ölkəmizin vəhşi təbiətinə reintroduksiya edilməsi istiqamətində layihələr həyata keçirilir. Bu günə kimi 36 baş Avropa bizonu, 346 baş ceyran reintroduksiya edilib. Gətirilən Avropa bizonlarının sayında artım olub və hazırda onların sayı 45-ə çatıb. Bundan əlavə, reintroduksiya tədbirləri zamanı 2021-ci ildən başlayaraq, hər ilin mart-aprel ayları ərzində şahin quşlarının respublikamızın ərazisində qorunması və onların təbiətdə saylarının artırılması məqsədilə "Şahin quşlarının təbiətə buraxılması üzrə Qətər kompaniyası" çərçivəsində Azərbaycana gətirilmiş 204 ədəd şahin quşu Hacıqabul, Siyəzən, Şabran və Laçın rayonlarının ərazisində havaya buraxılıb. 2022-ci ildə Şahdağ Milli Parkının İsmayıllı bölməsinə reintroduksiya olunan dörd baş nəcib maralın sayında 2023-cü ildə artım müşahidə edilib, hazırda onların sayı yeddidir. Bu il Bakı Zooparkından götürülmüş yeddi baş hind Tirəndazı Hirkan Milli Parkının ərazisində təbiətə buraxılıb.

● Su bioresurslarının artırılması istiqamətində hansı planlar var?

● Su bioresurslarının artırılması istiqamətində işlər davam etdirilir. 2023-cü ilin yeddi ayı ərzində qızılbalıqkimilər, çəkikimilər və nərəkimilər dəstəsinə aid olan ümumilikdə 3 milyon 560 min 715 ədəd balıq körpəsi təbii su hövzələrinə buraxılıb.

OV MÖVSÜMÜ OKTYABR AYINDA AÇILACAQ

● Balıqçılıq və Akvakultura Elmi-Tədqiqat Mərkəzi tərəfindən 2023-cü ildə "Əlif Hacıyev" elmi-tədqiqat gəmisi ilə monitorinqlər aparıldı. Nələr müşahidə olundu?

● Xəzər dənizinin Azərbaycan sektorunda "Əlif Hacıyev" adına elmi-tədqiqat gəmisi ilə Xəzərin cənub hissəsində (ölkəmizə aid olan bölmə üzrə) aparılan monitorinqlər zamanı üç məntəqə (Lənkəran, Kür Dili və Cənubi-Şərqi Qoltuq) üzrə zooplankton nümunələri toplanılıb. Həmçinin, Xəzər suitisinin yayılması və miqrasiyaları üzrə müşahidələr aparılıb və tək-tək də olsa suiti fərdləri müşahidə olunub. Kiçik Qızılağac körfəzi, Lənkəran, Kür Dili və Cənubi-Şərqi Qoltuq ərazilərin yaxınlığında quşların miqrasiyasının vizual müşahidəsi keçirilib. Burada əsasən flaminqo, qu quşu və sair müşahidə edilib. "Əlif Haciyev" elmi-tədqiqat gəmisi ilə Xəzər dənizində 18-28 iyul 2023-cü il tarixlərində kompleks ekoloji monitorinq təşkil edilib. Ümumi olaraq kompleks ekoloji tədqiqatlar nəticəsində Xəzərin mərkəz və cənub hissəsində (ölkəmizə aid olan bölmə üzrə) 45 stansiyalardan bioloji materiallar toplanıb. Zooplankton nümunələri dənizin 10-100 metr dərinliklərində tor vasitəsilə yığılıb. Bentik orqanizmlər isə 10-100 metr dərinliklərində dib nümunə götürən ələtlə götürülüb. Dənizdə Xəzər suitilərinin öyrənilməsi üçün təhlillər aparılıb, bu növün Azərbaycana aid sularında populyasiyasının mövcud vəziyyəti qiymətləndirilib. 2023-cü ildə keçirilmiş dəniz ekspedisiyalarının nəticələrinə əsasən, Orta Xəzərdə və Cənubi Xəzərdə kilkə balıqlarının kəsiklər və dərinliklər üzrə bioloji göstəricilərinin və ov dinamikasının, növ tərkibi, bioloji-ekoloji xüsusiyyətlərinin və ovunun statistik analizi aparılıb.

● Artıq yay fəsli bitir. Ov mövsümü nə zaman açılacaq?

● Əvvəlki illərlə müqayisədə yanğın hadisələrinin sayı və həcmi azalıb, amma təəssüf ki, son vaxtlar ovçuluq təsərrüfatlarında və onlara yaxın olan ərazilərdə yanğınların baş verməsi halları müşahidə edilir. Bununla bağlı cari ov mövsümünün açılması oktyabr ayına nəzərdə tutulub.Mövsüm açılmazdan əvvəl "Ov Məsələləri üzrə Elmi Koordinasiya Şurası"nın növbəti iclası keçiriləcək, ov obyektinə aid edilən vəhşi heyvan və quş növlərinin siyahısı, ovlanma müddətləri və normaları müəyyənləşdiriləcək.

CAN ALAN MAVİ XƏZƏR...

Əvvəlki illərlə müqayisədə bu il ölkə üzrə boğulma halları xeyli artıb. Elə gözucu baxanda da bu il Xəzərdə boğulma hallarının əvvəlki illərlə müqayisədə çox olduğunu görmək mümkündür. Bəs görəsən niyə bu il mavi Xəzərimiz bizi doğmalarımızdan daha çox ayırmaq istəyir?

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Hər həftə bu məzmunlu acı xəbərlərlə qarşılaşırıq - "Xəzər yenə can aldı". Bəzən isə, "Boğulmaqdan xilas edilib" xəbərlərini eşidib sevinirik. Əvvəlki illərlə müqayisədə bu il boğulma halları xeyli artıb. Elə gözucu baxanda da bu il Xəzərdə boğulma hallarının əvvəlki illərlə müqayisədə çox olduğunu görmək mümkündür. Bəs görəsən niyə bu il mavi Xəzərimiz bizi doğmalarımızdan daha çox ayırmaq istəyir, səbəb nədir?

5 BALLIQ ZƏLZƏLƏ İLƏ ÇUXUR ƏMƏLƏ GƏLMƏSİ MÜMKÜN DEYİL

Ekoloq Rövşən Abbasov bildirdi ki, insanların həyatlarını itirməsinə səbəb yalnız öz ehtiyatsızlıqları və səhlənkarlıqdır: "Deyirlər zəlzələ olub, çuxurlar, boşluqlar yaranıb. Bu elmi cəhətdən təsdiq olunmamış fikirdir. Bəs o zaman çuxur niyə quruda yox, dənizdə yaranıb? Yerin qabığı möhkəmliyinə görə eynidir. 5 ballıq zəlzələ ilə çuxur əmələ gəlməsi mümkün deyil. Dənizin suyunun artması və ya azalması isə iqlim amilləri ilə əlaqədidir. Bu da sahildən uzaqlaşmalara səbəb olur. 1995-ci ildən bu proses tədricən gedir. Küləkli havada dənizdə dalğalanma çoxalır. Dalğanın hərəkətinə baxdıqda görə bilərik ki, sahilə doğru gəlir və aşağı ilə çəkilib gedir. Bu zaman bəzən su insanları çəkib aparır. Boğulmaların əsas səbəbi isə insanın özüdür".

Rövşən Abbasov

BOĞULMALAR NƏZARƏTSİZ QALAN ƏRAZİLƏRDƏ BAŞ VERİR

FHN-in Dövlət Sularda Xilasetmə Xidmətinin mətbuat katibi Aqşin Əlilinin sözlərinə görə, boğulma halları nəzarətsiz qalan ərazilərdə baş verir: "Xidmət etdiyimiz çimərliklərdə ölümlə nəticələnən suda boğulma hadisəsi qeydə alınmayıb. Yalnız xilaslar olub. Suda boğulma halları xidmətin struktur bölmələrindən kifayət qədər kənarda, nəzarətsiz çimərliklərdə, çimmək üçün nəzərdə tutulmayan su kanallarında, arxlarda, süni göllərdə və digər su hövzələrində baş verib. Həmin ərazilərin sualtı relyefinin mürəkkəbliyi, axının sürətli olması bu yerlərdən istifadəni təhlükəli edir. Vətəndaşlar gedəcəkləri çimərlik haqqında məlumatlı olmalıdırlar. Xəzər dənizinin Azərbaycana aid zolağı təxmini 955 kilometrdir. Həmçinin, çoxlu su hövzələri var. Hamısını xilasedicilərlə təmin etmək mümkün deyil". A.Əlili bir faktı misal çəkdi: "Bu yaxınlarda Şüvəlanda FHN tərəfindən illərdir çimmək qadağan edilmiş "Şimal QRES" adlanan ərazidə 4 nəfər boğuldu. Hadisənin baş verdiyi ərazi çox təhlükəlidir. Orada aqreqatların soyudulması üçün dəniz suyundan istifadə olunur. İşlənmiş su yenidən dənizə buraxılır. Həmin axın yerində 3-4 metr enində bir kanal əmələ gəlir. O kanalda da su axını nəticəsində sualtı relyefdə çuxurlar, yarğanlar meydana çıxıb. Oradakı təhlükə gözlə görünəcək dərəcədədir. Amma yenə də vətəndaşlar biganə yanaşaraq, belə ərazilərdən istifadə edirlər və sonda bədbəxt hadisələr baş verir".

Aqşin Əlili

BOĞULANLARA NECƏ YARDIM ETMƏLİ?

A.Əlili qeyd etdi ki, kimisə xilas etmək istədikdə də ehtiyatlı olmaq lazımdır: "Bir neçə nəfərin boğulma hallarında əslində boğulan 1 nəfərdir. Sadəcə, xilasetmədən anlayışı olmayanlar kömək etmək istəyəndə onlar da batır. Çünki boğulan şəxs sağ qalmaq naminə digər adamı da suyun altına çəkir. Kimisə xilas edəndə onunla üzbəüz təmasa girmək lazım deyil. Batana arxadan yaxınlaşıb qolunuzu qoltuqaltından keçirərək, yaxud da saçından tutaraq arxası üstə üzə-üzə sahilə çıxarmaq olar. Batmanı görənlər ilk növbədə "112" qaynar xəttinə zəng etməlidirlər".

VALİDEYNLƏR UŞAQLARA NƏZARƏT ETMİRLƏR

Mətbuat katibinin sözlərinə görə, hava şəraiti də önəmlidir: "Küləyin sürəti 10 metrdən artıq olduqda çimərliyə getmək qadağandır. İnsanların batmasının əsas səbəbi elə küləkli hava şəraitidir. Nəzarət etdiyimiz ərazilərdə küləkli hava olduqda vətəndaşlara sudan çıxmaları üçün müraciət olunur. Amma nəzarətsiz ərazidə bu yoxdur. Son vaxtlar azyaşlı uşaqların çimərlikdə itməsi ilə bağlı müraciətlər də çox olur. Valideynlər uşaqları nəzarətdə saxlamırlar. Bizə olan müraciətlərin 95 faizində uşaqlar quru sahədən tapılıb təhvil verilib. 13 yaşına qədər uşaqların çimərlikdə nəzarətsiz qalması qadağandır".

A.Əlili bildirdi ki, hava qaraldıqdan sonra suya girmək təhlükəlidir: "Səhər saat 9-dan axşam 8-dək çimərlikdən istifadə etmək olar. Xilasedicilər həmin saatlarda xidmət aparır. Axşam texnikalar sudan çıxarılır, çünki hava qaralır, görmə məhdudlaşır".

Müsahibimiz ödənişli çimərliklərdə təhlükəsizlik məsələsinə də toxundu: "Çimərlik operatorlarına təhlükəsizlik qaydaları ilə bağlı bildirişlər təqdim etmişik. Özəl çimərlik operatorları təhlükəsizlik məsələlərini özləri həyata keçirməlidirlər. Lakin çoxu təhlükəsizlik tədbirlərinə əməl etmir. Bizim isə onlara təsir mexanizmimiz yoxdur".

ÇİMƏRLİYƏ PLANLI GETMƏK LAZIMDIR

Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyevin də sözlərinə görə, çimərliklərdə dünya üzrə boğulma hallarının 95 faizi qadağan olunmuş ərazilərdə baş verir: "Təəssüf ki, insanlar qeyri-çimərlik ərazilərinə üz tutur, daha dərinə gedir, üzmə sərhədlərini keçir, saatlarla suda qalır, yaxud spirtli içkinin təsiri altında olurlar. Bu da boğulma hallarını artıran səbəblərdir".

E.Nurəliyev dedi ki, çimərliyə getməyi əvvəlcədən düzgün planlamaq lazımdır: "Dənizdə saatlarla vaxt keçirmək, üzmə sərhədlərini keçmək olmaz. Çimərliyə əlverişli hava şəraitində getmək daha məqsədəuyğundur. Çimərliyi yarış meydançasına çevirməmək, "kim daha çox uzağa üzəcək" kimi hərəkətlərə yol verməmək lazımdır. Günün qaranlıq saatı çimərliyə getmək boğulma təhlükəsini artıran amillərdəndir. Maksimum 30-40 dəqiqə suda olduqdan sonra sahilə çıxıb istirahət etsələr daha yaxşı olar. Maarifləndirmə işləri aparılsa da, məlumat verilsə də, bəzən insanlar buna qeyri-ciddi yanaşırlar. Sonda da bədbəxt hadisənin baş vermə riski qaçılmaz olur".

Elmar Nurəliyev

Yataqxana yox, kirayə də BAHA

Mövsümi olaraq avqust və sentyabrın ilk ongünlüyündə Bakıda kirayə mənzillərə olan tələbat artır. Demək olar ki, hər il tələbələrin kirayə mənzil tapa bilməməsi problemi ilə qarşılaşırıq. Hazırda kirayə mənzil bazarında tələb və təklif balansı pozulub.



KÖNÜL CƏFƏRLİ

Tədris ili yaxınlaşanda valideynlərin ənənəvi problemləri başlayır. Orta məktəblərdə məktəbli forması, ali məktəblərdə kirayə mənzil dərdi. Hər kəs istəyir ki, axtardığını büdcəsinə uyğun, ucuz, amma keyfiyyətli tapsın. Regionlardan ali təhsil müəssisələrinə qəbul olunan tələbələrin valideynləri isə lap çox narahatdırlar. Uzaq, nabələd yerdə valideynlər uşaqlarının kirayəçi ilə birlikdə yaşamasını istəsələr də, tələbələr özləri buna qarşıdır. Universitetə yaxın, metro çıxışlarında mənzillərə isə yaxın durmaq mümkün deyil.

"EVİ QAYTARANDA ALDIĞIMIZDAN ÇOX TƏMİRİNƏ PUL XƏRCLƏYİRİK"

Metronun "İnşaatçılar" stansiyası yaxınlığında yerləşən binada mənzilini kirayə verən şəxs deyir ki, bir neçə il öncə tələbə oğlanlar mənzili yaman günə salıb: "Mənim də oğlum var, lakin o, heç bir kirayə qaldığı mənzilə bu cür laqeyd yanaşmayıb. Bir neçə il öncə 3 tələbə oğlan mənzil axtararkən mənimlə əlaqə saxladı. Evim 2 otaqlıdır. Metro yaxınlığında olmasını istədiklərini dedilər. Dəvət etdim, gəlib baxdılar. Öncədən səliqəli saxlamalarını, öz evləri kimi yanaşmalarını desəm də, il sonunda vəziyyət ürəkaçan olmadı. Döşəmə cızıq-cızıq, soyuducu xarab, kondisionerin pultu çilik-çilik, hamam otağında səliqəsizlik... Məsələ burasındadır ki, mənim kimi bir çox mənzil sahibləri sırf bu problemə görə insanlardan sənəd istəyir, sorğu-sual edir. Çalışırıq insanın necə biri olduğunu anlayaq. 400-500 manata kirayə verdiyimiz evi geri təhvil alanda aldığımızdan çox təmirinə pul xərcləyirik. Qiyməti də qaldıranda deyirlər bahadır, insafsızlıq edirsiniz. Qızlar nisbətən səliqəli baxır evə, amma onlarda da ayrı problem yaşayırıq. Evi 3 nəfərə kirayə veririk, 6 nəfər qalırlar. Tələbə yoldaşlarını da gətirirlər, kirayə pulu daha az olsun deyə. Tələbələr kirayə mənzil tapmır, amma kirayə mənzillərdən gəlir götürən şəxslər də normal kirayə-nişin tapa bilmir".

Vüqar Oruc

"HEÇ BİR AY ÖNCƏDƏN DƏ KİRAYƏ ÜÇÜN EV TAPA BİLMƏDİK"

Bu il Bakı Dğvlət Universitetinin Tarix fakültəsinə qəbul olan N.Zeynalova deyir ki, 1 ay öncədən ev axtarmağa başlayıb: "Zaqatalada yaşayıram və ali təhsil almaq üçün Bakıya gəlmişəm. Qəbul olunduğumu eşidəndə sevindim, amma kirayə mənzil problemi ürəyimi sıxdı. Hər kəs deyirdi ki 1 ay öncədən ev tapmaq lazımdır, yoxsa tapa bilməyəcəksən. İnanın ki, heç 1 ay öncədən də tapa bilmədik. Metronun "Elmlər Akademiyası" stansiyası yaxınlığında mənzil axtardım, amma 600 manatdan aşağı yoxdur. Olanlar isə çox səliqəsiz, təchizatsız mənzillərdir, aylıq 450 manat kirayə haqqı istəyirlər. Otaq yoldaşı tapmaq da çətindir. İnsan hər kəslə eyni mənzili bölüşə bilmir. Bir nəfər güc-bəla ilə tapırıq, onda da aylıq ödəniş çox olur. Universitetlərə yataqxanalar ayrılsaydı, yaxşı olardı".

Ekspertlər isə düşünürlər ki, son dövrlərdə paytaxta gələn qonaqların sayının artması, yay fəsli ilə bağlı istirahətə gələnlər, eləcə də ölkənin investisiya cəhətdən diqqət mərkəzində olması bu problemlərə təsir edən amillərdəndir.

EKSPERT TÜRKİYƏ TƏCRÜBƏSİNİ TƏKLİF EDİR

Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin (AQC) sədri, iqtisadçı ekspert Vüqar Oruc deyir ki, müharibədən qalib çıxan bir ölkə olaraq Azərbaycanın investisiya cazibədarlığı daha da artıb: "Digər tərəfdən, mövsümi olaraq avqust və sentyabr ayının ilk ongünlüyündə kirayə mənzillərə tələbat artır. Hər il biz tələbələrin kirayə mənzil tapa bilməməsi problemi ilə qarşılaşırıq. Hazırda kirayə mənzil bazarında tələb və təklif balansı pozulub. Bu məsələnin digər alternativ yollarla həllinə çalışılmalıdır. Həll yolu isə Türkiyə təcrübəsində olduğu kimi tələbə yurdları, sovet dövründəki kimi tələbə yataqxanaları inşa etməkdir. Çünki bu gün tələbələrin tək yaşamaq imkanı yoxdur. Şəraitsiz, birotaqlı mənzilin kirayəsi 400-500 manat aralığında dəyişir. Tələblər bir araya gəlib ödənişi öz aralarında bölməyə çalışırlar. Lakin mənzil sahibləri də birotaqlı evdə çox tələbənin qalmasını istəmirlər".

ÖVLADLARI ÜÇÜN KOMFORT İSTƏYƏN VALİDEYNLƏRİN ƏLİ CİBİNDƏ GƏRƏK

Ekspert onu da əlavə edib ki, bu gün kirayə bazarında qiymətlər bahalaşıb: "Qiymətlər həyət evləri üçün 300-350 manat aralığında, köhnə tikililərdə 450-500, yeni tikililərdə isə komfort səviyyəsindən asılı olaraq 600-700 manat arasında dəyişir. Metro çıxışlarına yaxın, eləcə də şəhər mərkəzində tam əşyalı kirayə mənzillərin 800 manat və daha baha qiymətə təklif edildiyini görürük. Ən çox tələb olunan mənzillər qanuni bir otaq olub, iki otağa düzəldilən mənzillərdir. Bəzi mənzillər isə xarici vətəndaşlar üçün nəzərdə tutulur və kirayə haqları təxminən 1500 manatdan başlayır. Bu mənzillərin kirayəsi ilə bir qrup şəxslər məşğul olur. Bu mənzillər kirayə bazarında cüzi bir hissəni təşkil edir. Makler köməyi ilə əldə edilən mənzillərin aylıq kirayə haqqından əlavə onlara da müvafiq ödənişlər edilir. Bu da mənzil axtaranlara o qədər də sərf etmir".

V.Oruc bildirdi ki, ailələr övladlarına tək qalması üçün kirayə mənzil tapa bilmirsə, alternativ yollara baş vururlar: "Daha uzaq ərazilərdə mənzil axtarmağa başlayırlar. Bu halda da yol xərci, digər xərclər qaçılmaz olur. Yaxşı olar ki ailələr kirayə mənzil axtarışına bir qədər erkən başlasınlar. Amma bu problemin həlli üçün dövlət səviyyəsində müdaxilə mütləqdir".



Özəl tikinti şirkətlərinin, sahibkarların bu sferada yeni biznes növü yarada biləcəklərinə diqqət çəkən ekspert qeyd edib ki, bir yataqxana tikib mütəmadi gəlir mənbəyi kimi biznesə çevirmək mümkündür: "Bir binanı inşa edib satmaq ayrı biznesdir, bir şəhərcik, yataqxana inşa edib onu güzəştli şərtlərlə istifadəyə vermək isə ayrı biznes növüdür. Bu da özəl biznes nümayəndələrini maraqlandırar. Bu həm problemin həllinə, həm də biznes sahəsində yeni inkişaf qollarının, istiqamətlərin yaranmasına töhfə verə bilər".

XARİCƏ GEDƏNLƏR YOXLANILIR, BƏS DAXİLDƏ SATILANLAR?



Xaricdən geri qayıdan məhsulların tərkibində əksərən, bitkiçilik üçün təhlükəli mikroorqanizmlər olur. Yəni, o hansı ölkəyə gedərsə, orada yayıla bilər. Ekspertlərin qənaətincə, bu mikro-orqanizmlərlə mübarizə düzgün aparılmır.

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Ötən həftə Azərbaycandan Rusiyaya ixrac olunan 47 ton pomidor və 14 ton çiyələk saxlanılıb. Ümumilikdə, ölkə ərazisindən Rusiyaya 61 ton bitki məhsulunun ixracı qadağan edilib. Tək pomidor və çiyələk deyil, tez-tez kartof və digər tərəvəzlərlə də bağlı belə hallarla rastlaşırıq. Müşahidələrimizə əsasən, xaricə göndərilən meyvə-tərəvəzin tərkibi ciddi şəkildə yoxlanılır. Bəs ölkə daxilində necə? Daxili bazarlarda satılan, bizim hər birimizin mətbəxini, süfrələrimizi bəzəyən meyvə-tərəvəz yoxlanılırmı?

DAXİLİ BAZARDA TƏHLÜKƏLİ NÜANS

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyir ki, daxili bazarda ən təhlükəli nüans yerli kənd təsərrüfatı məhsullarının zərərvericilərə yoluxmasıdır: "Azərbaycan Qida Təhlükəsizlik Agentliyinin (AQTA) əsasnaməsinə baxsaq görərik ki, qarşılarında çox hədəflər qoyulub. Onların vəzifəsi tək Azərbaycan istehlakçılarının qida təhlükəsizliyinin təmin olunması yox, eləcə də Azərbaycan mallarının xarici bazara çıxarılmasına yardım etməkdir. Lakin dəfələrlə məhsullarımız geri qaytarılıb. Burada ciddi məsələlərdən biri Azərbaycanın yerli kənd təsərrüfatı məhsullarının zərərvericilərə yoluxmasıdır. Xaricdən geri qayıdan məhsulların tərkibində əksərən, bitkiçilik üçün təhlükəli mikroorqanizmlər olur. Yəni, o hansı ölkəyə gedərsə, orada yayıla bilər. Təəssüflər olsun ki, bu mikroorqanizmlərlə mübarizə düzgün aparılmır".

185 ÖLKƏ ARASINDA 115-Cİ YERDƏYİK

Mütəxəssisin sözlərinə görə, ölkə bazarlarında satılan meyvə-tərəvəz məhsullarının keyfiyyəti istənilən səviyyədə yoxlanılmır: "AQTA-nın əsasnaməsində keyfiyyət barədə qeyd yoxdur. Qida həm təhlükəli ola bilər, həm də keyfiyyətsiz. Təhlükəli qida insanı bir anda öldürər. Təhlükəsiz və keyfiyyətsiz qida isə bunu bir neçə aya edər. Biz necə qidalandığımızı apteklərdə dərmanların satılmasında, xəstəxanalarda növbələrin çoxluğunda görürük. Ən əsası isə, Ümumdünya Səhiyyə Təşkilatının insan ömrünün uzunluğuna dair siyahısında 185 ölkə arasında 115-ci yerdəyik. Belə bir şəraitdə əlbəttə, Azərbaycanın əmtəə bazarında olan kənd təsərrüfatı məhsullarının tərkibində şübhələr yaranır".



BƏS AQTA NƏ DEYİR?

Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin İnformasiya təminatı və innovativ həllər şöbəsindən "Kaspi"yə verilən məlumata görə, AQTA qida zəncirinin bütün mərhələlərində dövlət nəzarəti və tənzimləməni həyata keçirir. Ölkədə istehsal olunan və ölkəyə idxal olunan qida məhsulları üzərində Agentlik tərəfindən risk əsaslı nəzarət tədbirləri görülür: "Eyni zamanda, ölkəmizdən xaricə ixrac olunan qida məhsulları, eləcə də fitosanitar nəzarətinə aid olan bitkiçilik məhsulları üzərində zəruri nəzarət tədbirləri həyata keçirilir". Qurumdan verilən məlumata görə, məhsullar gömrük ərazisinə daxil olduqdan sonra daşıdığı risk səviyyəsinə uyğun olaraq ekspertizadan keçirilir: "Ölkəyə idxal edilən məhsullardan Agentliyin müfəttişləri tərəfindən nümunələr götürülərək, Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyalarında müayinə edilir. Ekspertizanın nəticələri uyğun olduqda sahibkarlar məhsulları yerli bazarda sərbəst ticarət dövriyyəsinə daxil edə bilirlər. Ölkəmizdən ixrac olunan məhsullar isə idxalçı ölkənin tələbləri nəzərə alınmaqla laborator analizlərə cəlb edilir və müşayiətedici sənədlər, ixrac sertifikatı ilə təmin olunur. Laboratoriyada məhsullar minimum keyfiyyət və təhlükəsizlik göstəricilərinə uyğun olaraq müayinə edilir, nəticələr normativ texniki sənədlərin tələblərinə cavab vermədiyi halda, idxal olunan məhsul geri çağırılır, məhv edilir və ya utilizasiya olunur, ixrac zamanı isə məhsullara ixrac sertifikatlarının verilməsindən imtina olunur".

Həmçinin qurum sahibkarlarla tez-tez maarifləndirici görüşlər keçirdiyini, onlara qanunvericiliyin tələbləri izah olunduğunu bildirir.

BAZARLARDA AÇIQ SATILAN MƏHSULLAR YOXLANILMIR

Eyyub Hüseynov

Həmsöhbətimiz deyir ki, hər il rəhbərlik etdiyi birliyin xətti ilə sadə aparatlarla qarpız və yemişlərin tərkibi yoxlanılır. Bu tərəvəzlərin tərkibində nitratların miqdarı çoxdur: "Nitrat bağırsaq mikroorqanizmlərinin fəaliyyətində kəskin zəhər olan nitritə çevrilir. Alınan bu maddə orqanizmdə maddələr mübadiləsində iştirak edərək insan və heyvanlar üçün ciddi təhlükə yaradır. Nitrat suda, torpaqda və nəhayət, bitkinin bütün orqanlarında həddən artıq toplanır. Bu isə azot gübrəsinin torpağa tələb olduğundan artıq verilməsi ilə bağlıdır. Qarpız və yemişin tərkibində nitratlar ildən-ilə azalsa da, hələ istənilən səviyyədə deyil. İnsanlar hansı kənd təsərrüfatı məhsulunun tərkibində nə olduğunu bilmirlər. Onu yalnız laboratoriyalar araşdırır. Ona görə də vətəndaşlar nəinki daxili bazarda yoxlanmayan, hətta xarici bazardan da geri qaytarılan məhsulları tükədirlər. Bazarlarda açıq satılan məhsullar yoxlanılmır. Məsələn, Azərbaycanda daim fındıq və qozun tərkibində göbələklər olur ki, bu insan sağlamlığı üçün təhlükəlidir. AQTA ilə fermer təsərrüfatları sıx işləməli, güclü nəzarət olmalıdır".

QİYMƏT BAHALAŞACAQ, ENDİRİM OLMAYACAQ

Oktyabr ayında Bakıda arıçılıq məhsullarının növbəti yarmarkası keçiriləcək. Azərbaycan Arıçılar Assosiasiyasının təmsilçisi bildirib ki, bu il bal qıtlığı ilə əlaqədar yarmarkada qiymətlər bahalaşacaq və endirimlər olmayacaq.

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Kənd Təsərrüfatı Nazirliyinin və Azərbaycan Arıçılar Assosiasiyasının birgə təşkilatçılığı ilə 2-22 oktyabr tarixlərində Bakıda arıçılıq məhsullarının 23-cü sərgi-satış yarmarkası keçiriləcək. Bir arıçı yarmarkada maksimum 400 kq bal və maksimum 30 ədəd arı şanı satışa çıxara bilər.

Xatırlayırsınızsa, bir müddət əvvəl arıçılar bu il ölkədə bal qıtlığı olacağını bildirmişdilər. Buna səbəb kimi havaların qeyri-sabit və küləkli keçməsi göstərilmişdi. Hava şəraiti ilə əlaqədar arılar yetəri qədər məhsul toplaya bilməyib. Bəs bu vəziyyət yarmarkaya necə təsir edəcək? Satış üçün kifayət qədər balımız varmı?

"NECƏ OLACAĞINI OKTYABRIN 2-DƏ GÖRƏCƏYİK"

Kənd Təsərrüfatı Nazirliyinin Mətbuat Xidmətinin rəhbəri Vüqar Hüseynov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, balın çox və ya az yığılması yarmarkaya təsir etmir: "Azərbaycanda 23 min arıçı var. Yarmarkada isə 250 nəfər arıçı iştirak edəcək. Yarmarkada iştirak edənlər ölkə üzrə fermerlərin bir faizi qədər belə deyil. Kim istəyirsə, yarmarkada iştirak edə bilər. Qeydiyyat hələ yeni başlayıb. Biz yalnız təşkil edirik, qiymətə və digər məsələlərə qarışmırıq. Keçən il yarmarkada 15 manata da, 50 manata da bal var idi. Balın çox və ya az olmasının da yarmarkaya aidiyyəti yoxdur. Çünki yarmarkada limit var. Elə insan var limitdən az, elə adam var limit qədər gətirir. Necə olacağını oktyabrın 2-də görəcəyik. Keyfiyyətə Qida Təhlükəsizliyi Agentliyi nəzarət edir ki, yarmarkada saxta bal olmasın".

Vüqar Hüseynov

ARIÇILAR ÜÇÜN ƏSAS MÜŞTƏRİLƏRİNİ İTİRMƏMƏKDİR

Azərbaycan Arıçılar Assosiasiyasının İdarə Heyətinin üzvü Elvin Bayramlı dedi ki, yarmarkaya 50 kiloqram bal gətirmək də mümkündür: "Yarmarkada 400 kiloqram bal elə də çox deyil. 50 arısı olan arıçı bu qıtlıqla 500-600 kiloqram bal süzüb. Elə adam var 200 arı pətəyi var. Bəzi arıçılar yarmarkaya çox az bal gətirir. Sadəcə, daimi müştəriləri var. Həmin müştəriləri qorumaq üçün iştirak edirlər. Bəzi arıçılar başqalarından bal götürür. Məsələn, üç arıçıdan yarmarkada biri iştirak edir. Həmin iştirak edən digərlərindən bal götürür. 400 kiloqramdan az bal çıxarılması problem deyil. Bəzi adamlar çox bal gətirirdi deyə, hədd qoyuldu. Onsuz da artıq qalırdı və arıçılar geri aparmalı olurdular. Çox güman ki, bu il arıçılar yarmarkaya keçən ilə nisbətən az bal gətirəcəklər. Arıçılar üçün əsas yarmarkada iştirak etmək, müştərilərini itirməməkdir. Yarmarka daha çox arıçıların görüşü, bayramıdır. Ona görə hamı yarmarkada olmaq istəyir".

AQTA DİASTAZA FERMENTİNİ YOXLAYIR

E.Bayramlının fikrincə, bu il arılara şirə ilə daha çox yemləmə edilir deyə, keyfiyyəti aşağıdır: "AQTA diastaza fermentini yoxlayır. Diastaza keçidi altıdır. Keçid altıdırsa, heç olmasa balın keyfiyyəti 8 olmalıdır. Arıya şərbət verilsə də, balı istehsal edəndə ağzından mürəkkəb şəkərin sadə şəkərlərə parçalanması üçün diastaza fermentini qatır. Amma təbii olanda ağacdan, çiçəkdən də həmin ferment gəlir. Arı da əlavə edəndə daha keyfiyyətli olur. Amma yalnız arı qatanda, o zaman keyfiyyətsiz və aşağı göstəricili bal alınır. Belə balların bəzisi yoxlamadan keçib qəbul edilir, amma keçməyib geri qaytarılanlar da var".

Həmsöhbətimiz həmçinin bildirdi ki, insanlar bu il qıtlıqla əlaqədar daha çox bal alıb saxlaya bilərlər: "Yarmarkaya çıxarılacaq ballar ümumi Azərbaycanda istehsal olunan məhsulun təxminən yetmişdə bir hissəsidir. Bu da çox cüzi göstəricidir. Keçən il 10 kq bal istifadə edirdisə, bu il 5 kq istifadə edəcək".

Elvin Bayramlı

YARMARKADA 5-10 MANAT BAHALAŞMA OLACAQ

E.Bayramlının sözlərinə görə, bal satışından bu il daha az gəlir əldə ediləcək: "Ümumi bal qiymətləri minimum 5 manat da olsa, bahalaşıb. Yarmarkada da 5-10 manat bahalaşma olacaq. Bu da məcburiyyətdəndir. Yarmarkada əvvəlki illərdəki kimi endirim olmayacaq. Arıçı hər il yarmarkada 400 kq balı 20 manatdan satırdısa, 800 manat gəlir əldə edirdi. Bu il 300 kq bal çıxarıbsa, 25 manatdan satsa, 750 manat qazanmış olur. İstənilən halda gəlir azalacaq".

BU İL YARMARKADA AŞAĞI KEYFİYYƏTLİ BAL ÇOX OLACAQ

Müsahibimiz qeyd etdi ki, bəzən məcburiyyətdən aşağı keyfiyyətli balı da yarmarkaya qəbul edirlər: "Kimsə keçən ilin qiymətləri ilə - 10-15 manata bal satsa, deməli, onun balı aşağı keyfiyyətlidir. Hər il balların 30 faizi ən aşağı keyfiyyətli ballar olur. Bu il daha çox olacaq. Amma yarmarkada ən keyfiyyətli ballar iştirak etməlidir. Bu il balların daha diqqətlə yoxlanılması tapşırılıb. Çünki bu il şəkər verilən arılar daha çoxdur. Yemləmə daha çox edilir ki, arılar həyatda qalsın".

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
Global Media Group

Baş redaktor
İlham Quliyev

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rufik İsmayılov, Böyükxanım Kərimova, Könül Cəfərli, Kubra Məhərrəmova, İlhamə Əbülfət, Aysel Aslan, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov

Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall Ticarət Mərkəzi
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydiyyatdan keçib.
Lisenziya №022264, Qeydiyyat № V 64
Qəzet redaksiya kompyuter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2228
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

SU KRANLARIMIZ NİYƏ TEZ SIRADAN ÇIXIR?

Paytaxt sakinləri mənzillərə verilən içməli suyun su kranlarının tez sıradan çıxmasına səbəb olduğundan şikayətçidirlər. "Azərsu" isə bildirir ki, içməli suyun tərkibinə zərərsizləşdirici xlordan başqa heç bir kimyəvi maddə vurulmur. Su kranlarının tez sıradan çıxmasının əsas səbəbi onların keyfiyyətsiz materiallardan hazırlanmasıdır.

RUFİK İSMAYILOV

Paytaxt sakinləri son dövrlər mənzillərindəki su kranlarının vaxtından əvvəl sıradan çıxması, paslanması, ərp bağlamasından şikayətlənirlər. Vətəndaşlar iddia edirlər ki, bu, evlərə verilən suyun tərkibi ilə əlaqədardır. Onların fikrincə, təhlükəsizlik məqsədilə içməli suya qatılan kimyəvi məhlullar son nəticədə mənzillərdə su kranlarının tez-tez sıradan çıxmasına səbəb olur. Sakinlər iddia edirlər ki, suyun təmizlənməsi üçün şəxsi vəsaitləri hesabına mənzillərdə sutəmizləyici qurğular, filtrlər quraşdırsalar da, bu, heç nəyi dəyişmir. Keyfiyyətli və ya keyfiyyətsiz materialdan hazırlanmasına baxmayaraq, yenə də su kranları tez-tez paslanır, çürüyür, su qaynadılan zaman isə ərp meydana gəlir. Vətəndaşlar bunu sağlamlıqları üçün böyük təhlükə hesab edirlər.

SUYA ANCAQ ZƏRƏRSİZLƏŞDİRİCİ XLOR VURULUR

Paytaxt sakinlərinin bu narahatlığını araşdırmaq qərarına gəldik. "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin (ASC) Mətbuat Xidmətinin rəhbəri Anar Cəbrayıllı qeyd olunan problemin bilavasitə keyfiyyətsiz materiallardan hazırlanmış kranlardan qaynaqlandığını vurğulayıb. O qeyd edib ki, paytaxta və regionlara verilən içməli suyun tərkibinə zərərsizləşdirici xlordan başqa heç bir kimyəvi maddə vurulmur: "İlk növbədə qeyd edim ki, mən vaxtilə "Əhmədli", "Elmlər Akademiyası" metro stansiyalarının yerləşdiyi ərazilərdə yaşamışam. Hazırda isə "Neftçilər" və "Qara Qarayev" metro stansiyalarının arasındakı ərazidə yaşayıram. Bakı şəhər sakinləri kimi, mən də daim eyni sudan istifadə etmişəm və edirəm. Su kranlarının tez-tez sıradan çıxmasının əsas səbəbi onların keyfiyyətsiz materiallardan hazırlanmasıdır. Ərpin meydana gəlməsi suyun tərkibindəki minerallarla əlaqəlidir. Suyun tərkibinə də zərərsizləşdirici xlordan başqa heç bir kimyəvi maddə vurulmur".

"HƏTTA FİLTRLƏR DƏ BUNU TƏMİZLƏYƏ BİLMİR"

Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin rəhbəri, Xəzər Hava Keyfiyyəti Laboratoriyasının müdiri Rövşən Abbasov isə bildirir ki, su kranlarının vəziyyəti ilə bağlı paytaxt sakinlərinin ictimailəşdirdiyi problem bilavasitə içməli suyun codluğundan meydana çıxır. Onun sözlərinə görə, su kranlarının ərp bağlamasına təsir edən amillər sadəcə onların deyil, eyni zamanda məişət texnikasının, paltaryuyan maşının, su borularının sıradan çıxmasına da səbəb ola bilər: "Burada çox güclü ərpbağlama prosesi gedir. Bunun da səbəbi içməli suda çoxlu kalsium və maqnezium ionlarının olmasıdır. Onların müxtəlif birləşmələri var. Bu, kalsium sulfat, maqnezium sulfat, maqnezium xlorid, sink, sink xlorid də ola bilər. Bunun nəticəsində nəinki su kranları, eləcə də su boruları ərp bağlayır, aşınmaya məruz qalaraq qısa zamanda sıradan çıxır. Bu ona işarə verir ki, su çox coddur. Hətta filtrlər də bunu təmizləyə bilmir".

Anar Cəbrayıllı

COD SUYUN SAĞLAMLIĞA ZİYANI

Ekspert vətəndaşlara tövsiyə edib ki, belə sulardan içmək və yemək hazırlamaq üçün istifadə etməsinlər: "Məsləhət görərdim ki, onlara verilən içməli suyun TDS səviyyəsini, göstəricisini ölçsünlər. Yəqin ki, bu səviyyə 600-800-ə yaxındır. Belədirsə, bu, çox yuxarı göstərcidir. Bu faktın özü sudakı codluğun yüksək olduğunu ortaya qoyur. Belə içməli suyun sağlamlıq effektləri də var. Sudakı ərpləşmə böyrəklərdə daş əmələ gətirir, qan damarlarında da müəyyən problemlər yaradır. Tövsiyə edərdim ki, belə sulardan yemək hazırlanmasında və içmək üçün istifadə edilməsin. Vətəndaşlar filtrdən keçirilmiş sulardan istifadə etsələr, bu, daha yaxşı olar. Tərkibindəki bərk maddələrin səviyyəsi aşağı olan sudan istifadə daha məqsədə uyğundur".

Cəmil Babayev

"TAM MİNERALLARDAN TƏMİZLƏNMİŞ SU "ÖLÜ" SUDUR"

"Azərsu" ASC-nin Texnoloji proseslərə nəzarət və suyun təhlükəsizliyi şöbəsinin rəisi, baş texnoloq Cəmil Babayev isə bildirib ki, yeraltı və yerüstü su mənbələrindən əldə edilən istənilən suyun tərkibində minerallar olur. Onun sözlərinə görə, mineralların əsas hissəsi kalsium və maqneziumla birləşən anionlar olur ki, bu da suyun ümumi codluq, səhlik göstəricisidir: "Ümumi codluq göstəricisi də daimi və müvəqqəti codluğa bölünür. Daimi codluq karbonatlar, xloridlər və sairdir. Müvəqqəti codluq isə hidrokarbonatlar hesab olunur. İçməli suyu çaydanda qaynatsaq hamımız onun dibində ərpləşməni müşahidə edə bilərik. Bu, kalsium karbonatdır və suyun təbii mahiyyətidir. Tam minerallardan təmizlənmiş, filtrdən keçən sularda ərpləşmə baş vermir. Çünki onun tərkibində heç bir mineral qalmır, "ölü" suya çevrilir. Məişətdə vətəndaşlar tərəfindən fərdi qaydada istifadə edilən filtrlərdən keçirilən suları bu kateqoriyaya aid etmək olar".

MİLLİ SU STANDARTLARINA CİDDİ RİAYƏT EDİLİR

Su kranlarının tez-tez sıradan çıxmasına münasibət bildirən baş texnoloq vurğulayıb ki, ucuz və keyfiyyətsiz materiallardan hazırlanan belə kranlar daim su ilə təmasda olduğundan uzunömürlü olmur: "Bu, suyun tərkibindən deyil, bilavasitə kranın keyfiyyətsiz olmasından qaynaqlanır. Suyun tərkibinə zərərsizləşdirmə məqsədi ilə yalnız az miqdarda xlor vurulur. Dünyanın hər yerində təcrübə, qayda belədir. Bu zaman Ümumdünya Səhiyyə Təşkilatının müəyyən etdiyi qaydalara, tələblərə, həmçinin ölkəmizin Milli Su Standartlarına ciddi riayət edilir. Əgər vətəndaşlar "nerjaveyka" kimi tanıdığımız yüksək keyfiyyətli materialdan hazırlanmış kranlardan istifadə etsələr, tez-tez sıradan çıxmaz".

O, HEÇ KƏSƏ BƏNZƏMİRDİ

Aktyorlar var, illərlə yada düşmürlər. Aktyorlar var, hərdən yada düşürlər. Xalq artisti, görkəmli aktyor Səyavuş Aslan hər zaman yada düşən və unudulmayan aktyorlardandır.

TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Uşaqlıqda ağ-qara televizorun ekranından tanıdığın, çəkildiyi filmlərə, teletamaşalara, oynadığı rollara maraqla və sevərək baxdığın aktyorları sonradan həyatda görməyin, onlarla həmsöhbət olmağın öz cazibəsi var. Xalq artisti, görkəmli aktyor Səyavuş Aslan da mənim üçün belə azman sənətkarlardan olub.

Bu gün isə Səyavuş Aslanın haqqında xatirələr danışır. Hərçənd onunla bir səhnədə oynayan, bir filmdə, bir teletamaşada çəkilən aktyorların çoxu artıq həyatda yoxdur. Elə onun kimi özlərindən sonra izlərini qoyub dünyadan köç ediblər. Amma yaxşı ki, lentlərin və onu unutmayan sadiq tamaşaçıların yaddaşı, bir də çox az sayda onunla həmkar olan insanlar qalıb.

Sentyabrın 5-də - doğum günü ərəfəsində Səyavuş Aslanı onunla canlı ünsiyyətdə olmuş sənət adamları ilə anırıq:

"ORDAN-BURDAN"DA SƏYAVUŞ ÇƏKİLƏCƏKDİ

"Deyə bilmərəm ki, Səyavuş Aslanla çox işləmişəm, 2 ya 3 əsərdə onunla işimiz olub. Amma bu gün "Səyavuş" deyəndə onun çəkildiyi səhnələr, onunla bağlı xatirələr göz önünə gəlir"- deyə tanınmış rejissor, Xalq artisti Ramiz Həsənoğlu xatırlayır: "Səyavuş unikal aktyor idi. Sergey Parajanov Bakıda "Aşıq Qərib" filmini çəkirdi. O filmdə gürcü aktyorunu çəkmişdi, amma səsləndirmək üçün Səyavuşu çağırdı. Filmdə altyazı Azərbaycan dilində gedirdi. Cavanşir Quliyev filmin bəstəkarı idi. Sonra Cavanşir mənə danışdı ki, Parajanov Səyavuşun aktyor imkanlarına valeh olub. "Siz onun imkanlarından niyə az istifadə edirsiniz?" - deyə heyrətini gizlətməmişdi. Elə aktyorlar var ki, onların potensialı dərhal görünür. Səyavuş da o aktyorlardan idi". R.Həsənoğlu danışır ki, "Ordan-burdan" teletamaşasını çəkəndə Salman bəy roluna Səyavuşu dəvət edib: "Bir-iki epizodu çəkmişdim də. Amma Səyavuş qəfildən xəstələndi, böyrəyində daş vardı. Xəstəxanada yatmağa məcbur oldu. Biz çətin vəziyyətdə qaldıq, çünki Yeni il ərəfəsi idi və tamaşa efirə çıxmalı idi. Mən tamaşaya Cahangir Zeynalovu dəvət etdim. Hamı deyir ki, Cahangir unikal oynayıb. Bəli, razıyam, amma Səyavuş da çəkilsəydi, özünəməxsus oynayacaqdı". R.Həsənoğlu tamaşaçılar arasında böyük rəğbətlə qarşılanan "Evləri köndələn yar" teletamaşasının davamını - "Evləri göydələn yar"ı çəkəndə yenə Səyavuş Aslanı dəvət edib: "Tamaşanın 28 ildən sonrakı davamı kimi o aktyorları çəkdim. Səyavuş, Yaşar Nuri... hamısı qocalmışdı. Səyavuş Aslan kimi aktyorlar təkrarolunmazdır. O, heç kəsə bənzəməyən, öz dəst-xətti ilə seçilən bir aktyor idi".

YUMORU, GÖRKƏMİ, DANIŞIĞI...

Xalq artisti Hacı İsmayılov həmkarını Azərbaycan kinosu, teatrı və televiziyasının ən məşhur aktyoru kimi dəyərləndirdi: "Səyavuşla ilk görüşümüz 1963-cü ildə olub. O vaxt mən institutun 1-ci kursunda oxuyurdum. Xəzər rayonunun mədəniyyət sarayında Süleyman Ələsgərovun "Ulduz" operettası əsasında "Ulduz" filmi çəkilirdi. Səyavuş üzügülərliyi, optimistliyi və cəldliyi ilə yadımda qaldı. Sonradan o, Musiqili Komediya Teatrında, mənsə Akademik Milli Dram Teatrında işlədiyimiz üçün o qədər də görüşlərimiz olmadı". H.İsmayılov xatırlayır ki, müəyyən dövrdən sonra S.Aslan işləmək üçün Milli Dram Teatrına gəlmək istəyib: "Səyavuş Aslan komik aktyor olsa da, psixoloji-komik janrın nümayəndələrindən idi. Onda gülüş də, kədər də, sevinc də vardı. Bizim teatrda çalışmaq istəyirdi. Amma o zaman teatrın rəhbəri məsləhət görmədi. Yalnız illər keçəndən sonra - Həsənağa Turabov teatrımızın direktoru olanda Səyavuşu dəvət etdi. Səyavuş teatra gələn kimi bütün yeni tamaşalarda iştirak etdi. Sonralar televiziya tamaşalarında çəkildik. 3 seriyadan ibarət "Yaşıl eynəkli adam"da birgə çalışdıq. Onun bir aktyor kimi "kapriz"ləri vardı. "Məni çox incitməyin, bir dubla çəkin" deyirdi. Ona görə 3-cü hissədə çəkilmədi. Amma yeri görünürdü..." H.İsmayılov xatırlayır ki, Səyavuş Aslanın bir aktyor kimi improvizəsi onun yaradıcılığının üstün xüsusiyyəti olub: "Hicran" tamaşasında məşhur üçlüyün -Səyavuş, Nəsibə xanım və Hacıbaba Bağırovun improzvizələri tamaşaçılara necə ləzzət edir! O tamaşaya baxanda həmişə valeh oluram. Çox maraqlı günlərimiz olub. Çox optimist insan idi. Düzdür, ailə problemləri vardı, buna görə bəzən kədərli olurdu. Aktyorlar var, illərlə yada düşmürlər. Aktyorlar var, hərdən yada düşürlər. Səyavuş hər zaman yada düşən və unudulmayan aktyorlardandır".

XOŞBƏXT SƏNƏTKAR, BƏDBƏXT AİLƏ BAŞÇISI

"Səyavuş Aslan tamaşaçıların yaddaşında daha çox komik rolların aktyoru kimi qalıb, amma mən onun tragik bir aktyor olmasını da vurğulayardım" - deyə Xalq artisti Səidə Quliyeva xatırlayır: "Rejissor Hüseynağa Atakişiyev Akademik Milli Dram teatrında Maksim Qorkin "Həyatın dibində" əsərini hazırlayırdı. Onda Səyavuş Aslanı da teatra dəvət elədi. O, uzun illər Musiqili Komediya teatrının aparıcı aktyoru olub və o səhnədə möhtəşəm rollar oynayıb. Hüseynağa müəllim onu dəvət etməklə böyük bir risk etdi. O tamaşada mən də baş rollardan birini oynayırdım. Səyavuş teatrın səhnəsinə çıxanda tamaşaçılar gülüşdülər. Çünki onu səhnədə həmişə gülüş və alqışla qarsalayıblar. 2-3 dəqiqədən sonra başa düşdülər ki, Səyavuş Aslanı tamam fərqli bir ampluada görüblər. Sağ olsun Hüseynağa Atakişiyev. Tamaşaçılara sübut elədi ki, Səyavuş ampluası olmayan, hərtərəfli, qüdrətli aktyordur". S.Quliyeva yaşadığı çətinliklərə baxmayaraq Səyavuş Aslanı xoşbəxt sənətkar adlandırır: "Səyavuş Aslan çox xoşbəxt sənətkar, eayni zamanda bədbəxt ailə başçısı olub. Yaxşı ki, o, oğlunun son günlərini görmədi. Ailəsi də dağılmışdı. Bu, bizim də ürəyimizi ağrıdan bir tale idi. Amma nə etmək olar, onun da taleyinə belə yazılmışdı. Bununla belə, o, özünü itirmədi. Sənət cığırlarını çox dərin açdı. Özündən sonra milli teatr və kino tariximizə bəxş etdiyi əvəzsiz rollar qaldı..."


Ramiz Həsənoğlu

Səidə Quliyeva

Hacı İsmayılov

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
2 SENTYABR ŞƏNBƏ 2023
www.kaspi.az

TÜRKİYƏ NƏHƏNGLƏRİ "ULDUZ OVU"NDA

Xeyli müddətdir transferlərə böyük maliyyə ayırmaqdan qaçan Türkiyə klubları bu il yenidən fəallaşıblar. İstanbulun üç böyük klubu - "Qalatasaray", "Fənərbağça" və "Beşiktaş"ın bu yay reallaşdırdığı keçidlər xüsusilə diqqət çəkir.

ANTE REBİÇ

EDİN DZEKO

MAURO İKARDİ

FAİQ TAHİROV

Türkiyə Super Liqası komandaları bu yay transfer pəncərəsində fəallıqları ilə seçilirlər. Bunu xüsusilə də İstanbulun üç böyük klubuna aid etmək olar. "Qalatasaray", "Fənərbağça" və "Beşiktaş"ın bu yay reallaşdırdığı keçidlər Super Liqada çempionluq mübarizəsinin daha gərgin olacağının anonsu hesab edilməlidir.

GÜCLƏNƏN ÇEMPİON

Son çempion "Qalatasaray" transferlərə ümumilikdə 19,8 milyon avro xərcləyib. "Sarı-qırmızılar"ın satışlardan qazancı isə 14,5 milyon avro olub. "Qalatasaray"ın reallaşdırdığı ən böyük keçid Mauro İkardinin PSJ-dən satın alınmasıdır. Düzdür, argentinalı forvard keçən mövsüm icarə əsasında İstanbul klubunun formasını geyinirdi, lakin artıq birdəfəlik transfer olunub. Bu keçid Türkiyə çempionuna 10 milyon avroya başa gəlib.

"Qalatasaray"ın səs-küylü transferləri İkardi ilə məhdudlaşmır. Komanda "Kristal Pelas"dan Uilfrid Zahanı, "Şaxtyor"dan Teteni azad agent kimi heyətinə cəlb edib. Hakim Ziyeş isə "Çelsi"dən icarəyə götürülüb. Daha bir icarə "Leypziq"dən cəlb olunan Anxelinonun adı ilə bağlıdır. Klub həmçinin Kerem Demirbayı ("Bayer"), Kaan Ayhanı ("Sassuolo") və Sedrik Bakambunu ("Ən-Nəssr) müvafiq olaraq 3,7 milyon avro, 2,8 milyon avro və 700 min avroya transfer edib. Komandanı tərk edənlərə gəlincə, burada Mustafa Məhəmməd ("Nant", 5,75 milyon avro), Nikolo Zaniolo ("Aston Villa", icarəyə, 5 milyon avro) və Olimpiu Morutanı ("Ankaragücü", 3 milyon avro) qeyd etməliyik. Gedişlərdən Zaniolo diqqəti cəlb edir. Lakin onun mövqeyinə Ziyeş, Zaha, Tete kimi adların gəldiyini nəzərə alsaq, bu ayrılıq komandanı zəiflətməyib. Ümumiyyətlə, son çempionun yay transfer kampaniyasından daha güclü çıxdığını demək olar.

ƏN AKTİV "FƏNƏRBAĞÇA"DIR

"Fənərbağça" da bu yay transfer bazarında ən aktiv Türkiyə klublarındandır. Komandanın səs-küylü keçidləri Edin Ceko və Duşan Tadiçin adı ilə bağlıdır. Bundan başqa, "Marsel"dən 15 milyon avroya Cengiz Ünder, Moskva "Dinamo"sundan 9,75 milyon avroya Sebastyan Şimanski, "Mançester Yunayted"dən eyni qiymətə Fred, "Udineze"dən 9,3 milyon avroya Rodriqo Bekau, Zaqreb "Dinamo"sundan 6,65 milyon avroya Dominik Livakoviç, "Sassuolo"dan 2,8 milyon avroya Mert Müldür transfer olunub. "Reyncers"dən ayrılan Rayan Kentin pulsuz cəlb olunması da "bülbüllər" adına müsbət məqamdır. Satışlara gəlincə, klub Arda Güleri "Real Madrid"ə, Atilla Salay "Hoffenhaym"a, Brumanı "Braqa"ya, Dieqo Rossi "Kolumbus"a, Mergim Berişanı "Auqsburq"a, Vilyan Araonu "Panatinaikos"a, Qustavo Henrikeni "Valyadolid"ə satıb. Enner Valensiya, Ali Samatta, Dmitrioe Pelkas izə azad agent kimi gediblər. Ümumilikdə "Fənərbağça"nın xərcləri 56,8 milyon avro, gəlirləri isə 51,15 milyon avro olub.

"BEŞİKTAŞ"IN PULSUZ ULDUZLARI

Çempionluğa digər iddialı "Beşiktaş" da ciddi keçidlər həyata keçirib. "Qara qartal" Milot Raşitsaya 5,25, Baxtiyor Zaynutdinova 4,5, Jan Onanaya 4, Artur Masuakya 2 milyon avro xərcləyib. Daha səs-küylü adlar isə azad agent kimi cəlb olunub. Burada "Liverpul"dan ayrılan Aleks Oksleyd-Çemberleyn və "Milan"ı tərk edən Ante Rebiçi xüsusi vurğulamaq lazımdır. Daha bir ciddi keçid isə "Lester"dən Daniel Amartinin gətirilməsidir. Romeyn Saiss, Vellinton, Kevin Nkudu, Natan Redmond isə yola salınıblar. Ümumilikdə klub transferlərə 16 milyon avro xərcləyib. Gəlir isə cəmi 2,5 milyon avro olub.

Digər klublar arasında da transferdə müəyyən fəallıq müşahidə olunur. Lakin "Trabzonspor" və "Başakşehir" kimi iddialılar nisbətən geri qalırlar. Bu, yeni mövsümdə fərqli adların qabara biləcəyi anlamına gəlməlidir.

İstanbul nəhəngləri yeni mövsümə uğurlu start veriblər. Ümumiyyətlə, Türkiyə klubları uzun illər sonra avrokuboklarda uğurlu çıxış edirlər.

Avropadakı uğurlu çıxış Türkiyənin UEFA sıralamasındakı mövqeyinə təsirsiz ötüşməyib. Mövsümə 12-ci başlayan qonşu ölkə hazırda doqquzuncudur.

Düzdür, yeni ulduzlar hələ ən yaxşı oyunlarını göstərməyi bacarmayıblar, amma effektin tez bir zamanda hiss olunduğunu demək mümkündür. Zamanla bu, daha qabarıq hiss olunacaq.

UİLFRİD ZAHA
DUŞAN TADİÇ

BAKCELL PARKİNQ ÖDƏNİŞLƏRİNİ SÜRƏTLİ ETDİ

Bakcell şirkəti abunəçilərinə parkinq ödənişlərini sürətli ödəmək imkanı yaradıb. Artıq abunəçilər parkinq xidmətini mobil balansdan ödəyə biləcəklər. Xidmətin aktivləşdirilməsi, deaktiv edilməsi sms vasitəsilə həyata keçiriləcək. Üstəlik, sms pulsuzdur. Qiymətlər müəyyən edilmiş tariflərə uyğun olaraq, minimum 30 qəpikdən başlayır.

Bakcell abunəçiləri avtomobilin qeydiyyat nişanı və parklanma məntəqəsinin nömrəsini 1181 qısa nömrəsinə SMS göndərərək parkinq zamanını başladacaqlar. Parkinqdən çıxarkən isə, "stop" yazıb 1181 qısa nömrəsinə SMS göndərmək kifayətdir.

Korporativ abunəçilər isə ödənişi yalnız AzParking tətbiqi vasitəsilə, həyata keçirə bilərlər.

Bakcell şirkəti "Bakcell ilə ən sürətli ol" şüarı ilə genişmiqyaslı kampaniya həyata keçirir.

Xatırladaq ki, şirkət "NEQSOL Holding"in tərkibinə daxildir.